Xalqın qəzeti!
# Xalq qəzeti
№ 166 (30570) 7 avqust 2024-cü il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan Rusiya strateji tərəfdaşlığının ortaq hədəfləri

### Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib.**

Prezident İlham Əliyev Sergey Şoyqunun səfərinin ikitərəfli münasibətlərin gündəliyi və qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında regionda gedən proseslərlə bağlı mütəmadi təmasların əhəmiyyətini qeyd etdi.

İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən Azərbaycan Prezidenti bunun ən yüksək və digər səviyyələrdə təmaslarda, eyni zamanda, ölkələrimiz arasında imzalanmış sənədlərin və yol xəritələrinin həyata keçirilməsi, təhlükəsizlik, nəqliyyat, energetika, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlıqda özünü nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev bu məsələlərlə bağlı mütəmadi olaraq Prezident Vladimir Putin ilə müzakirələrin aparıldığını bildirdi.

*(ardı 2-ci səhifədə)*

## "Cavanşir körpüsü"nün ərazisi gülüstana dönüb



Səhifə ➩ 2

## Seçkilərə maraq böyükdür



Səhifə ➩ 5

## Klaarın "xüsusi hal"ı, yaxud boşboğazlığı




Səhifə ➩ 3

## COP29 ekoloji mübarizənin önəmli mərhələsi olacaq




Səhifə ➩ 8

## Yaxın Şərq: hərbi qarşıdurma kəskinləşir



Səhifə ➩ 11

## Şəfa qaynaqlarımızın gəl-gəl deyən vədəsidir



Səhifə ➩ 10

## "Paris-2024": güləşçimiz bürünc medal uğrunda mübarizə aparacaq



Səhifə ➩ 12



## Qərb Tbilisidən bu cəsarəti gözləmirdi

### *Gürcüstanda Qərbin agent və casus şəbəkəsi iflic vəziyyətinə düşür*

**Qonşu Gürcüstanda maraqlı hadisələr silsiləsi davam edir. "Xarici agentlər haqqında" qanunun parlamentdə qəbulundan sonra Qərbin bütün müstəvilərdə Gürcüstana münasibəti 180 dərəcə dəyişib. Hazırda beynəlxalq sanksiyalarla təhdid olunan rəsmi Tbilisi ABŞ və Avropa İttifaqının (Aİ) ən sərt təzyiqləri qarşısında duruş gətirmək məcburiyyətindədir. Bu arada avrokomissarın Gürcüstan Baş nazirinə qarşı sui-qəsd barədə xəbərdarlığı qarşılıqlı münasibətlərdə diplomatik etiket və çərçivələrin gözlənilmədiyi mənasına gəlir...**

Əvvəlcə onu deməliyik ki, həm ABŞ-nin, həm də Qərbin Cənubi Qafqaz siyasəti iflasa uğramış vəziyyətdədir. Bakının Vaşinqton və Aİ ilə münasibətlərinin "istidən soyuğa" doğru getməsinin səbəbləri barədə yazmışıq. Bölgədə onlara loyal yeganə ölkə Ermənistandır. Fəqət, özlərinin regiona nəzarət planlarından əl çəkməyən Brüssel və Vaşinqton indi, sadəcə, ciddi geosiyasi önəm daşımayan Ermənistanla kifayətlənməyə məcbur olublar. Amma onu da qeyd etməliyik ki, kollektiv Qərbin Ermənistana təsir imkanlarının nə vaxta qədər qüvvədə olacağı sualı hələ açıqdır. Mövcud şəraitin uzun müddət dəyişməyəcəyi də inandırıcı görünmür. Görünən odur ki, kollektiv Qərbdən gözləntiləri "daşa dirənəcək" Paşinyan iqtidarının da xarici siyasət vektoru əks istiqamətə dəyişə bilər.

Reallıq onu deyir ki, yaranmış mürəkkəb durumda ABŞ və Qərb Gürcüstanı tamamilə itirmək təhlükəsi ilə üzləşiblər. Uzun müddət Qafqazın qərbyönümlü ölkəsi kimi qəbul edilən Gürcüstanın həm Aİ, həm də Ağ evlə qarşılıqlı münasibətlərində "qara zolaq" mərhələsi başlanıb. Bu mərhələnin startı Qərbin rəsmi Tbilisinin "Xarici agentlər haqqında" Qanunu qəbul etməsindən sonra verildi.

Parlamentin məlum qanunun qəbuluna kəskin reaksiya verən Qərb Gürcüstan hakimiyyətinə demək istəyirdi ki, "bizim oradakı agentlərimizə toxunmayın". Əslində, onlar bunu tələb edirdilər. Tələbləri rədd ediləndə isə Vaşinqton, onun ardınca Brüssel diktəyə boyun əyməyən, Qafqaz xarakteri göstərən Gürcüstanla münasibətlərinə yenidən baxmaq qərarına gəldilər. Bu barədə açıqlama verən ABŞ-nin Dövlət katibi Antoni Blinken rəsmi Tbilisinin davranışlarının Ağ evin bu ölkəyə münasibətinin ciddi şəkildə dəyişdiyini açıq şəkildə bildirdi. O, vəziyyətin belə davam edəcəyi təqdirdə rəsmi Vaşinqtonun Tbilisi ilə əməkdaşlığı məhdudlaşdırmaq məcburiyyətində qalacağını, ikitərəfli münasibətin pozulacağını dedi. ABŞ-nin baş diplomatının bu açıqlaması Ağ evin Gürcüstan hökumətinə siyasi ultimatumu sayıla bilər.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycanın investisiya məkanı dünyaya açıqdır



Səhifə ➩ 7

# Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Hökumətlərarası komissiyanın fəal işlədiyini deyən dövlətimizin başçısı bu yaxınlarda Bakıda bu komissiyanın iclasının keçiriləcəyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin digər qurumları arasında da fəal təmasların olduğunu qeyd etdi.

Dövlətimizin başçısı iki ölkənin siyasi rəhbərliyi arasında qəbul olunmuş qərarların, məhz "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin müddəalarının uğurla həyata keçirilməsini məmnunluqla qeyd etdi.

Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirdi.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu nümayəndə heyətinə səmimi və isti münasibətin göstərilməsinə görə minnətdarlığını bildirərək, bunun əsasında iki ölkənin dövlət başçıları arasında olan şəxsi münasibətlərin durduğunu dedi.

Sergey Şoyqu ölkələrimiz arasında regional təhlükəsizlik, hərbi-texniki, nəqliyyat, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. O, ikitərəfli əməkdaşlığın gündəliyində çox mühüm məsələlərin durduğunu və onların uğurla həll edildiyini dedi. Bu xüsusda Şimal-Cənub dəhlizinin həyata keçirilməsini bunun nümunəsi kimi dəyərləndirdi və bununla bağlı üçtərəfli əsasda böyük işlərin görüldüyünü qeyd etdi.

Sergey Şoyqu ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirdi.

Görüşdə "3+3" formatında əməkdaşlığın perspektivləri müzakirə olundu.

Söhbət zamanı Ümummilli Lider Heydər Əliyevin xatirəsinə Rusiyada göstərilən ehtirama toxunularaq, Baykal-Amur Magistralının tikintisində Ulu Öndərin böyük rolu bir daha qeyd edildi, Prezident İlham Əliyevin bu ilin aprelində Moskvada Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.

*AZƏRTAC*

# "Azərbaycan–Mərkəzi Asiya–Avropa" yaşıl enerji dəhlizi yaradılır



**Energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti Astana şəhərində keçirilən Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin birinci iclasında, həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüşdə iştirak edib.**

Tədbirlərdə "Azərbaycan-Mərkəzi Asiya-Avropa" yaşıl enerji dəhlizinin yaradılması üzrə görülən işlər və atılacaq növbəti addımlar müzakirə olunub. Üç ölkə arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin layihəsinin razılaşdırıldığı, layihənin ilkin texniki-iqtisadi əsaslandırması üçün texniki tapşırığın təsdiq edildiyi, texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün İtaliyanın CESI şirkətinin seçildiyi və tərəflərin milli enerji şirkətlərinin iştirakı ilə Birgə Müəssisənin yaradılması barədə razılıq əldə edildiyi bildirilib.

*XQ*

# "Cavanşir körpüsü"nün ərazisi gülüstana dönüb

## *Müasir nəqliyyat qovşağı paytaxtın mərkəzini ətraf massivlərlə maneəsiz birləşdirir*



**Bakı şəhəri yeni parkları, yaşıllıqları, memarlıq ornamentləri ilə bəzədilmiş inciləri olan tikililəri ilə şəhər sakinlərini və qonaqları heyrətləndirir. Qədim şəhərimiz bununla da öz gözəlliyinə daha bir əsrarəngizlik qatır.**

Avqustun 5-də şəhərimizin Xətai rayonu ərazisində "Cavanşir körpüsü"nün yerində yeni avtomobil yolunun inşa edilməsi şəhər əhalisinin, xüsusilə sürücülərin və piyadaların əhval-ruhiyyəsinə gözəl təsir etdi.



Məlumat üçün bildirək ki, Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən 12 aşırımlı "Cavanşir körpüsü"-nün uzunluğu 202 metr, eni 17,3 metr idi. Uzun illər bu körpü yol ötürücüsü funksiyasını yerinə yetirirdi. Belə ki, 1962-ci ildən buradakı dəmir yolu vasitəsilə yüklər qısa zamanda dəniz limanına çatdırılırdı.

İllərin qovşağında zaman öz sözünü dedi. Bir gün həmin ərazidə dəmir yolu şəbəkəsi ləğv olundu və körpü əvvəlki əhəmiyyətini itirdi. Əvvəllər körpünün altından qatarlar, üstündən isə avtomobillər hərəkət edirdi. Hazırda isə ərazidən keçən dəmir yolu xətləri sökülüb. Eləcə də yol ötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab vermədiyi nəzərə alınaraq, təhlükəsizlik baxımından bu körpünün sökülməsinə zərurət yaranmışdı.

Körpünün yerində təzə inşa edilən 4 hərəkət zolaqlı yeni avtomobil yolunun uzunluğu 400 metrdir. Yeni piyada səkiləri layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda salınmışdır. Xüsusilə, yeni yolun salındığı əraziyə münbit torpaq qatı verilərək, müasir tipli yaşıllıq, quruculuq işləri həyata keçirilmişdir.

Onu da qeyd edək ki, yeni tipli bu layihənin həyata keçirilməsi 2024-cü ildə "Yaşıl dünya naminə həmrəylik ili"ndə xalqa bəxş edilən, paytaxt sakinlərinə göstərilən ən nümunəvi xidmətlərdən biridir.



Bu sətirlərin müəllifi və operator-fotoqraf Elşən Ağalarov xalq arasında "Qaqarin körpüsü" kimi tanınan "Cavanşir körpüsü"nün yerində salınan avtomobil yolundan qəzetimiz üçün reportaj hazırlamağa yollandıq. Burada gördüklərimiz bizi heyran etdi. Həqiqətən, ətrafda gözəl bir mənzərə yaradılıb. Paytaxt sakinlərindən yeni yolla bağlı fikirlərini bizimlə bölüşmələrini xahiş etdik.

**Sahibə Əliyeva, ərazidə yaşayan sakin:**

– Bizim evimiz yaxınlıqda yerləşir. Neçə müddət idi ki, burada gedən tikinti işlərini izləyirdik. Nəhayət ki, avqustun 5-də xoş müjdəli bir sabahın açılmasının şahidi olduq. Gözəl bir yol salınıb. Hətta, yaşıl zolaqlı yeni yolun, ayırıcı zolaqların salınması bizə xoş təsir bağışlayır. Uşaqlarımızla təhlükəsiz ərazidə istirahət edə bilirik. Şəhər sakini kimi bu rahatlığı bəxş edən dövlətimizə minnətdarıq.

**Sergey Filin, rusiyalı qonaq:**

– Mən bu şəhərdə bir neçə gündür ki, qonağam. Buradakı parkların, yaşıllıq ərazilərinin füsunkarlığı diqqətimi cəlb edib. Doğrudan da, bu şəhərin gözəlliyindən xüsusi olaraq danışmağa dəyər. Siz belə bir qədimliyi və müasirliyi vəhdət təşkil edən paytaxtınızla fəxr edə bilərsiniz. Yeni avtomobil yolunun salınması isə çox böyük işdir. Çünki bütün dünyada insanlar rahat və müasir tipli yolları quran, inşa edən mütəxəssislərə ehtiyac duyur. Bu baxımdan yeni yolunuzu, buradakı müasir tipli quruculuq işlərini alqışlayıram.



**Ruslan Məmmədov, taksi sürücüsü:**

– 42 ildir sükan arxasındayam. Hər dəfə şəhərin yollarının abadlaşmasını görəndə ürəyim dağa dönür. Mən bilirəm ki, yol salmaq necə böyük bir işdir. Çünki yeni yol rahatlıq, təhlükəsizlik baxımından biz sürücülər üçün çox önəmlidir. Ona görə də "Cavanşir körpüsü"nün yerində inşa olunan yeni avtomobil yolunun istifadəyə verilməsi hər bir sürücünün sevincinə səbəb olub.

**Nicat Əliyev, şəhər sakini:**

– Mən bir gənc kimi şəhərimizin gözəlliyindən zövq alıram. Yeni yolların, müasir tipli yaşıl zolaqların salınması ilə hər bir sakin öyünə bilər. Bu gün ilk dəfə olaraq təzə salınmış səkidə – təhlükəsizlik şəraitində skuter sürürəm. Yeni yolun salınmasının əhəmiyyəti ondadır ki, sürücülərin də, biz sakinlərin də ehtiyacları hərtərəfli nəzərə alınıb. Bu qayğını bizə göstərən dövlətimizin başçısına, şəxsən cənab Prezidentə çox minnətdaram.

**Bəli, Bakı şəhərinin gözəlliyi ilə hər birimiz öyünüb, fəxr edə bilərik. Avqustun 5-də şəhərin Xətai rayonu ərazisində Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yeni tipli, şəhər əhəmiyyətli avtomobil yolunun istifadəyə verilməsini "Xalq qəzeti" olaraq biz də alqışlayır və müasir tipli qədim şəhərimizin füsunkar gözəlliyindən yazmağı özümüzə borc bilirik. Bu şəhərin sakini olmaqla qürur hissi keçirməyə dəyər. Məşhur bir kəlamda deyildiyi kimi, tarixiliyi ilə müasirliyi vəhdət təşkil edən şəhərlərin sakini olmağın özü belə yaşamağın özəl bir nemətidir, necə deyərlər: yaşamaq gözəldir, yaşatmaq da!**

*Kəmalə ABDİNOVA,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Qərb Tbilisidən bu cəsarəti gözləmirdi

**(əvvəli 1-ci səhifədə)**

Məsələnin maraqlı tərəfi odur ki, Aİ-nin Tbilisiyə reaksiyası ilə ABŞ-nin mövqeyi üst-üstə düşür. Aİ-nin xarici siyasət məsələləri üzrə sözçüsü Peter Stano bildirib ki, birlik "Xarici agentlər haqqında" Qanun qüvvəyə minəndən sonra Gürcüstana bütün maliyyə yardımını dayandırmaq variantını nəzərdən keçirir. Stano "Europa Press"-ə müsahibəsində deyib: "Aİ Gürcüstandakı hadisələrdən ciddi şəkildə narahatdır. Bundan əvvəl Aİ Gürcüstana ölkənin müdafiəsini gücləndirmək üçün istifadə ediləcəyi planlaşdırılan 30 milyon avronun ayrılmasını dondurmuşdu. Bu pullar Gürcüstanın qeyri-hökumət təşkilatlarına yönəldiləcək. Stano, həmçinin xatırladıb ki, Aİ "mövcud vəziyyətdən çıxış yolu tapmağa yönəlmiş əlaqələr istisna olmaqla" Gürcüstan hakimiyyəti ilə siyasi təmasları minimuma endirib. Brüsselin qərarı ilə Gürcüstanın Aİ-yə inteqrasiya prosesi də dayandırılıb.





* * *

İndi bu sual hər iki tərəfi maraqlandırır: proses necə bitəcək? Gürcüstanın kollektiv Qərblə münasibətlərində soyuqluq davam edəcəkmi? Bu, son nəticədə Gürcüstandakı mövcud iqtidarın xarici siyasət kursuna korrektələr etməsinə, ölkənin inkişafının qərbyönlü vektorundan tamamilə imtinasına gətirib çıxara bilərmi?

Oxucuların diqqətinə əvvəlcə gürcü ekspertlərin suallara cavablarını çatdırırıq. **Qafqaz İslam Araşdırmaları Mərkəzinin direktoru, Rusiya Federasiyası hökuməti yanında Maliyyə Universitetinin eksperti Şota Axaidze** deyir ki, əslində, Aİ-nin qərarı təmiz taftologiyadır: "Onlar Bayden Administrasiyasının Gürcüstanda müxtəlif mülki qurumlara ayırdığı 95 milyon dolları artıq dondurduqlarını təkrarlayırlar. Bu məsələyə daha yaxından nəzər salmağa dəyər. Aydındır ki, Piter Stano Gürcüstanın, guya, demokratiya prinsiplərindən uzaqlaşdığını, avroatlantikləşmə və avrointeqrasiya kursundan əl çəkdiyini bəyan edən Aİ-nin yeganə rəsmisi deyil. Onları demokratiya və insan hüquqları və vətəndaş cəmiyyətinin güman edilən faydası üçün həyata keçirilən islahatlar maraqlandırır. Bütün bunları ağılsızlıq adlandırmaq olar. Əslində, bu "ssenarilərin" müəllifi Antoni Blinken, həmçinin Bayden Administrasiyasının digər üzvləri və bəzi senatorlardır. Misal üçün, senator Ben Kardin bütün Qərb strukturlarını – ABŞ və Aİ-ni Gürcüstana yardımı dayandırmağa, bütün tranşları, qrantları kəsməyə çağırıb. Onlar bu yolla bizi cəzalandırdıqlarını düşünürlər".



Amma bu diplomatik demarşın bir məntiqi cavabı olduğunu deyən direktorun fikrincə, əgər onlar paritet əsasda, beynəlxalq hüquqa uyğun əməkdaşlıq etmək istəmirlərsə, yəni Gürcüstana vassal ölkə kimi baxırlarsa, deməli, bizim də heç bir yardıma və Avropaya inteqrasiyaya ehtiyacımız yoxdur: "Əslində, Gürcüstan rəsmiləri, parlamentin başçısı Papuaşvili və baş nazir Kobaxidze açıq şəkildə bildirdilər ki, amerikalıların ayırdığı 95 milyon dollar və Aİ-nin ayırdığı 30 milyon dollar, faktiki olaraq, ölkə büdcəsinə daxil olmayıb. Biz suveren ölkəyik və büdcəmiz Gürcüstan daxilində toplanan vergilərdən formalaşır. Qəribədir ki, onlar bizim kimdənsə asılı olduğumuzu və ya onların pullarının dövlət aparatını saxlamağa getdiyini düşünürlər. Əlbəttə, elə deyil. Onların pulları birbaşa QHT-lərə gedirdi ki, onların maraqlarına uyğun siyasi prosesləri qızışdırsınlar. Yəni, ölkəyə maliyyə axınının dayandırılması bizə mənfi təsir göstərməyəcək. Əksinə, ABŞ və Aİ-nin maraqlarına uyğun dövlətimizə və konstitusiya quruluşuna qarşı oynayan təxribatçı təşkilatlarının daha da azacağı mənasında müsbət təsiri olacaq".

Sözünün sonunda Axaidze ritorik sual verir: "Əgər onlar bizə münasibətində qaydalara riayət etmək istəmirlərsə, o zaman belə bir kurs bizim nəyimizə lazımdır və bizə nə vəd edir?"

* * *

**"SIKHA Foundation" tədqiqat mərkəzinin təsisçisi, politoloq Arçil Sixarulidze** hesab edir ki, Aİ və ABŞ-nin qərarlarının Gürcüstanda demokratiyanın inkişaf səviyyəsi ilə heç bir əlaqəsi yoxdur: "Mənə elə gəlir ki, hətta Qərblə əlaqəsi olan gürcülər belə Moldova və Ukraynanın demokratik göstəricilərə görə, guya, Gürcüstanı qabaqladığını eşitməkdən çox da məmnun deyillər. Bütün bunlar seçki kampaniyasının tərkib hissəsidir. Aİ və amerikalılar Gürcüstanda seçicilərə təzyiq göstərmək və onlara xəbərdarlıq etmək istəyirlər ki, özünüzü düzgün aparmasanız Aİ-nin bəyənmədiyi (əvvəllər bəyəndiyi) hökumətə səs versələr, bunun ağır nəticələri olacaq".

Ekspert Sixarulidzeyə görə, problem ondadır ki, onların ayırdığı kapital Gürcüstanı, həqiqətən, asılı vəziyyətə salacaq, ona ağır zərbə vura biləcək və ya onlarsız mövcudluğunu dayandıracaq səviyyədə deyil: "Gürcüstan Aİ və ABŞ-nin bizim QHT-lərə köçürmək barədə danışdıqları on milyonlarla dolları asanlıqla diversifikasiya edə və ala bilər. Yəni, amerikalı və avropalı tərəfdaşların köməyi olmadan Gürcüstanın ölkə kimi dağılacağı fikri, sadəcə olaraq, reallıqdan uzaqdır. Bütün bunlar simvolik addımlardır. Bidzina İvanişvili özü bu xərcləri bir anda öz vəsaiti hesabına qarşılaya bilər. Eyni məbləği Türkiyədən, Çindən, ərəb ölkələrindən ala bilərik. Yəni alternativlər var".



Qərb Ukraynanın Gürcüstandan daha demokrat ölkə olmasından nə qədər çox danışsa, insanları bir o qədər qıcıqlandıracağını bildirən politoloq bu zaman haqsızlıq hissinin daha da artacağını deyir: "Çünki Gürcüstan digər postsovet ölkələrindən çox islahatlar aparıb. İndi bəzi məsələlərə yenidən baxmaq istəmədiyi üçün tənqid olunur. Bu hiss cəmiyyətdə daha da güclənəcək və bu yolla Qərb ancaq anti-Qərb əhval-ruhiyyəsinə kömək edəcək. Qərbsiz Gürcüstan heç nə itirilməyəcək. Bu cür ritorikadan nə qədər çox istifadə edilərsə, Gürcüstanın xarici siyasətini şaxələndirmək istəyi bir o qədər artacaq".

* * *

"Qərbin Cənubi Qafqaza baxışı həmişə özünəməxsus tərzdə olub. Avropaya inteqrasiya prosesində hər üç ölkənin həmahəng olmasını istəyirdilər. Bu, yalnış yanaşmadır. Belə cəhdlər yüz il əvvəl də edilib". **Bu fikirlərin müəllifi siyasi icmalçı Tofiq Abbasov** kollektiv Qərbin Qafqaza münasibətinin dəyişmədiyinə, onların hələ də qəyyumluq, hamilik meyillərindən qurtulmadığına diqqəti yönəltdi: "Qərb Cənubi Qafqazı açar-bölgə kimi qəbul edir. Üstəlik, Mərkəzi Asiyada konturları görünən planlarından əl çəkmək istəmir. Gürcüstana gəldikdə isə bu ölkənin Qərbin tərkib hissəsi olması fikri ilə o qədər də razı deyiləm. Qonşularımız bir şeyi unudurlar ki, Qərb istədiyini aldıqdan sonra keçmiş patnyoruna marağını itirir, vədinə də əməl etmir. Bunun dəfələrlə şahidi olmuşuq. Dünyanın güc mərkəzlərindən biri sayılan Qərb qarşısına qoyduğu məqsədinə çatmaqdan ötrü bütün üsullardan istifadə edir. Yəni, öz niyyətindən, məramından heç vaxt dönmür. Bu, həm də Qafqaz bölgəsinə aiddir. Əlbəttə, onlar Gürcüstanın



timsalında özlərinin növbəti satellitini görürdülər. Amma gördük ki, Gürcüstan hakimiyyəti, nəhayət, praqmatik tərpəndi və Rusiyaya qarşı platsdarm olmaqdan imtina etdi. Bidzina İvanişvilinin partiyası, yeni hökumət Qərbin ölkələrinə yekəxana müdaxiləsinin qarşısını aldı. Bəli, Qərb hamıya yuxarıdan-aşağı baxır. Bəzi ölkələri "şər qovşağının halqaları" adlandıran həmin Qərbin özü ən böyük Şər qüvvədir. Mal və pul dövriyyəsi tamamən onların tabeliyindədir. Əgər İrəvanın da Bakı və Tiflis kimi ağıllı siyasi kursu olsaydı, bütün problemlərdən qarşılıqlı razılaşma ilə çıxa bilərdik".

Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin fərqli olduğunu qeyd edən politoloq iki ölkə liderinin bu yöndə böyük rol oynadığını bildirdi: "Vaxtilə həm Heydər Əliyev, həm də Eduard Şevardnadze anladılar ki, ilk növbədə, iqtisadi zamində özlərini sığortalamadırlar. Sonra Azərbaycanın hesabına Gürcüstan da qazandı. O vaxt Petrosyana, Koçaryana neft kəmərlərindən birinin Ermənistandan keçməsi təklif olunmuşdu. İstəmədilər. Rusiyanın təsiri altında olan İrəvan özünü "üçlük"-dən kənara qoydu. İndi özü Qərbin diktəsi ilə oynayır. Gürcüstan isə məlum qanunla bağlı haqlı olaraq kollektiv Qərbə güzəştə getmədi".

Beləliklə, ABŞ və Aİ rəsmi Tbilisinin belə cürətli mövqeyindən və "Xarici agentlər haqqında" qanunundan ciddi şəkildə əndişələniblər. Çünki anlayırlar ki, bu qanunun tətbiqi Gürcüstanda onlara xidmət göstərən agent və casusların fəaliyyətini əməlli-başlı məhdudlaşdıracaq. Qərbin rəsmi Tbilisiyə təzyiqi məhz "qrant agenturası"nı qorumaq cəhdləri ilə bağlıdır. Bundan ötrü ən radikal addımlara hazır olduğunu sezdirir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Klaarın "xüsusi hal"ı, yaxud boşboğazlığı

## *Aİ-nin keçmiş xüsusi nümayəndəsinə nə olub?*

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi Toivo Klaar sərsəmlədi. Əlbəttə, onun indiyədək tam mənada obyektiv davrandığını söyləmək mümkünsüzdür. Amma Klaar diplomatikliyini qoruyur və hərdən buna görə erməni ictimai rəyinin təmsilçilərinin də qəzəbinə tuş gəlirdi. Ancaq görünür, sonacan dözə bilmədi. Ya da gethagetdə Klaara nəsə oldu.**

Əslində, fövqəladə heç nə baş vermədi. Sadəcə, Klaar təmsil etdiyi qurumun ermənipərəst çoxluğunun dilindən danışdı. Danışdı və Qarabağdan öz istəkləri ilə çıxmış hayların geriyə dönüşlərini "xüsusi hal" kimi dəyərləndirdi. İlk baxışdan bunu anlamaq mümkündür. O mənada ki, Qarabağ erməniləri hansı səmtdən yanaşsaq, vətəndaşı olduqları dövlətə qarşı çıxmış kütlədir.

Prinsipcə, bu kütlənin böyük əksəriyyəti başıpozuq, asi və cinayətkardır. Bu kütlənin Xocalı soyqırımının törədilməsində rolu olub. Ona görə də Klaar Qarabağ ermənilərinin bölgəyə geridönüşü naminə xüsusi şərtlər qondarır. Yeri gəlmişkən, bu, təkcə Aİ təmsilçisinin deyil, bütövlükdə, kollektiv Qərbin baxışıdır. Qərbdə yaxşı anlayırlar ki, Qarabağın erməni əhalisi içərisində azərbaycanlılara qarşı silah çevirmiş şəxslər kifayət qədərdir.

Bəli, Qərbin istəyi Qarabağda məhz belə bir cinayətkar toplumu diri tutmaqdır. Vaxt var idi ki, Ermənistan hakimiyyəti həmin toplum üçün beynəlxalq təminat məsələsindən dəm vururdu. Bu, indi Klaarın haqqında söz açdığı "xüsusi hal" məntiqinin bir qədər fərqli formasıdır. Mahiyyət isə eynidir – Qarabağ ermənilərini imtiyazlı təbəqə kimi göstərmək. Elə isə Azərbaycan nə üçün Ermənistandan didərgin salınmış azərbaycanlıların geri dönüşü məsələsini qaldırmamalıdır? Qaldırır və mövqeyində haqlıdır. Bəs niyə Klaar və onun kimilər bu haqqı görməzdən gəlirlər? Nə səbəbdən məsələyə birtərəfli yanaşırlar?

Bu yerdə Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat katibinin müavini Vasif Əliyevin vurğuladıqlarına diqqət yetirək. "Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi, Avropa İttifaqının Özbəkistandakı səfiri təyin edilmiş Toivo Klaarın Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana və əvvəllər yaşadıqları digər ölkələrə miqrasiya etmiş ermənilərin qayıtması məsələsini xüsusi hal kimi nəzərdən keçirməsi, indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnu şərtləndirməsi qəbuledilməzdir", – deyən V.Əliyev onu da bildirib ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri dönmələri üçün müvafiq şərait yaradılması Ermənistanın öhdəliyidir və beynəlxalq ictimaiyyət bu öhdəliyin yerinə yetirilməsini tələb etməlidir.

Əlbəttə, Qərbin ənənəvi ikili standartlar siyasətinin ədalətsiz təzahür formalarından söz açmaqdan uzağıq. Yalnız onu deyək ki, davamlı olaraq Qarabağ haylarının geriyə qayıtmaları məsələsini qabardıb Qərbi azərbaycanlıların yurd yerlərinə dönüşlərini hansısa şərtlərə bağlamaq riyakarlıqdır. Bəs bu riyakarlıq erməni cəmiyyətində necə qarşılanır? Yəni, Klaar və onun təmsil etdiyi qurumun ermənipərəstliyi lazımınca qiymətləndirilirmi? Əlbəttə ki, yox. Erməni cəmiyyəti diplomatikliyi anlamayacaq qədər rəzil durumdadır. Ona Klaardan daha çox Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə nümayəndəsi Jozep Borrell kimi qatı ermənipərəstlər lazımdır. Yeri gəlmişkən, Klaar kimi Borrelin də səlahiyyət müddəti bitib.



Bəli, səlahiyyət müddəti bitən Klaar Aİ-nin xüsusi nümayəndəsi vəzifəsində çalışarkən, təmsil etdiyi qurumun Azərbaycan–Ermənistan şərti sərhədindəki mülki müşahidə missiyasının fəaliyyətinin legitim qəbul olunması üçün əlindən gələni etdi. Klaar, eyni zamanda, baş nazir Nikol Paşinyan hakimiyyətinin nüfuzunun saxlanılması, daha doğrusu, itməməsi üçün də hər şeyi həyata keçirdi. Ancaq erməni cəmiyyətinin müəyyən kəsimi belə hesab edir ki, Aİ-nin Rusiya sülhməramlılarının Qarabağdan çıxmalarındakı passivlik xidmətləri nə qədər böyükdürsə, bölgənin ermənisizləşdirilməsində də rolları bir o qədərdir. Bütün bunların fonunda Klaarın indi söylədiklərinə münasibət birmənalı deyil. Çünki o, vəzifəsindən uzaqlaşır. Erməni cəmiyyətinin təmsilçiləri bildirirlər ki, nə üçün bu adam əvvəl belə açıq fikirlər sələndirmirdi. Axı indi onun söylədiklərində rəsmilik kriteriyası bir o qədər aktual deyil.

Ümumən, erməni politoloq və ekspert cameəsinin nümayəndələrinin fikrincə, Brüssel də Vaşinqton kimi dəfələrlə açıq şəkildə yalan danışıb. Hansı mənada? O anlamda ki, guya onlar Ermənistan–Azərbaycan danışıqlarının gündəliyinə qarışmırlar, sadəcə danışıq platforması təqdim edirlər. Onlar onu da bildirirlər ki, bütün əsas oyunçular Qarabağ ermənilərini ayrıca subyekt kimi tanımır. Belədə Klaarın dilə gətirdikləri boşboğazlıqdan başqa bir şey deyil. Klaarın bildirdikləri həm də o səbəbdən boşboğazlıqdır ki, o, Qarabağ ermənilərinin Bakı ilə danışıqlar aparmasından söz açır. Hər şeyi bir kənara qoyaq, hansı Qarabağ ermənisi belə bir cəsarət sahibi olacaq? "Cəsarətlilərin" hamısı Bakı həbsxanalarındadır.

Bəli, Klaar və onun həmkarlarının fikrincə, Qarabağ ermənilərinin Azərbaycana mifik şəkildə qaytarılması məsələsi sülh danışıqlarının gündəliyindədir. Halbuki reallıq ölkəmizin XİN təmsilçisi V.Əliyevin diqqətə çatdırdığı kimidir: "Azərbaycan tərəfinin dəfələrlə erməni sakinlərin öz evlərində qalması və onların geri qayıtması üçün müraciətlər etməsinə baxmayaraq, ermənilərin suveren Azərbaycan ərazilərinə geri dönmək niyyətində olmadığı səfir təyin edilmiş Toivo Klaara yaxşı məlumdur. Bu xüsusda, Azərbaycan tərəfi yalnız ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmət edən ermənəsilli şəxslərin Azərbaycana qayıtması niyyətinə hörmətlə yanaşır. Vəzifədən gedən ərəfədə səlahiyyətlərinə aid olmadan bu kimi qərəzli açıqlamalar verməsi ilk növbədə Aİ rəsmisinin təmsil etdiyi qurumun reputasiyasına vurduğu növbəti zərbədir".

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374** **Bakı şəhəri, 3 avqust 2024-cü il**

**"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından və preambuladan "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.2. 2-ci hissədən ", habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə" sözləri çıxarılsın;

1.3. 3-cü hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.4. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin magistratura və rezidentura səviyyələrində, habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nın adından ", habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə" sözləri çıxarılsın;

1.5. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasında ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla), əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları" üzrə:

1.5.1. adından və 1.1-ci bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.2. 1.2-ci bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.3. 1.3-cü bənddən ", həm də Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsini" sözləri çıxarılsın;

1.5.4. 1.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.5. 1.5-ci bənddən, 2-ci hissənin dördüncü abzasından, 4.4-cü bəndin birinci cümləsindən, 5.9-cu bənddən və 6-cı hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.6. 4.1-ci bəndin birinci cümləsindən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.7. 4.6-cı bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.8. 5.2-ci, 5.3-cü bəndlərdən, 5.6-cı bəndin altıncı abzasından və 5.8-ci bəndin üçüncü cümləsindən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.9. 5.7-ci bəndin üçüncü abzasından "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri, beşinci abzasından isə "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası arasında Nümunəvi Çərçivə Müqaviləsi" üzrə:

1.5.10.1 yuxarı sağ küncdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.10.2. adından, preambuladan, 2.2.2-ci və 2.3.3-cü yarımbəndlərdən və 2.3-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.10.3. 1.1-ci bənddən (hər iki halda) "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10.4. 2.1-ci və 3.2-ci bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri çıxarılsın;

1.5.10.5. 2.2.1-ci yarımbənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın;

1.5.10.6. 2.4-cü və 3.3-cü bəndlərdən (hər iki halda) "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.10.7. 5.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına"sözləri çıxarılsın;

1.5.10.8. 9.2-ci və 9.3-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10.9. 10-cu hissədən "və ya Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

1.5.11. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası ilə dövlət sifarişi ilə təhsil alacaq təhsilalan arasında Nümunəvi Fərdi Müqavilə" üzrə:

1.5.11.1 yuxarı sağ küncdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.11.2. adından, preambuladan, 2.1-ci bənddən, 2.3.6-cı yarımbənddən, 3.2-ci, 5.5-ci bəndlərdən və 10-cu hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.11.3. 1.1-ci bənddən (hər iki halda), 9.2-ci və 9.3-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.11.4. 2.2-ci bənddən (hər iki halda), 2.3.2-ci və 2.3.4-cü yarımbəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.11.5. 2.3.5-ci və 2.3.7-ci yarımbəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri çıxarılsın;

1.5.11.6. 2.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın;

1.5.11.7. 3.3-cü və 5.4-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasını" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1824 (Cild I) ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"nın 4.5-ci bəndinin üçüncü cümləsindən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 375** **Bakı şəhəri, 5 avqust 2024-cü il**

**"Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 376** **Bakı şəhəri, 5 avqust 2024-cü il**

**Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələblərin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Qiymətləndirmə fəaliyyəti həyata keçirilərkən qiymətləndiricinin etdiyi səhv və ya yol verdiyi ehtiyatsızlıq, yaxud diqqətsizlik halları əsasında onun fəaliyyəti üzrə "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin, habelə qiymətləndirmə haqqında müqavilə şərtlərinin pozulması nəticəsində sifarişçiyə və (və ya) üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına dair minimum tələbdir.

**2** Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta məbləğinin minimum həddi 200.000,0 (iki yüz min) manat müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# 2 il əvvəl itkin düşmüş 2 hərbçimizin qalıqları aşkarlanıb



**Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində iyulun 3-də Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülüb.**

Bu barədə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə məlumatında bildirilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Məmmədov Fərid Əjdər oğlu və 09.02.2003-cü il təvəllüdlü Abdullayev Firdovsi Mais oğluna aid olduğu müəyyən edilib.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilmişdir ki, həmin əsgərlər 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşmüşlər, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər.

Əsgərlərin nəşlərinin tapılması 2024-cü il avqustun 5-də Dövlət Komissiyasında keçirilmiş görüşdə itkin hərbçilərin ailələrinə elan edilib.

Hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə əsgər Fərid Məmmədov və əsgər Firdovsi Abdullayevin dəfni ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Dəfn mərasimlərinin vaxtı və yeri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

***XQ***

# Baş prokuror vətəndaşları dinləyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həlli üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, avqustun 6-da Baş prokuror Kamran Əliyev Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Qax rayonu və digər bölgələrdən olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Görüşdə iştirak edən 28 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Azərbaycan–Özbəkistan ekoloji əməkdaşlığı



**Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə noyabrda Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

***XQ***

## Milli Məclisə seçkilərə 24 gün qaldı

SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Seçkilərə maraq böyükdür

## Müsahibimiz 11 saylı Binəqədi–Qaradağ dairə seçki komissiyasının sədri Nəbi Xəlilovdur

**Seçkilər hər bir xalqın həyatında mühüm rol oynayan siyasi kampaniyadır. Seçicilər səsvermə prosesində mütəşəkkil qaydada iştirak etməklə, əslində, öz gələcəklərinə biganə qalmadıqlarını nümayiş etdirmiş olurlar.**



İyirmi dörd gündən sonra ölkəmizdə ali qanunvericilik orqanına – Milli Məclisə növbədənkənar seçkilər keçiriləcək. Bu, müstəqil ölkəmizin bütün ərazisində keçirilən ilk parlament seçkiləri kimi tarixə düşəcək.

Ötən il sentyabrın 19-da cəmi bir sutka davam edən lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağın dağlıq hissəsindəki separatçı-xunta rejimi ağ bayraq qaldıraraq süqut etdi. Bu il fevralın 7-də ölkənin bütün ərazisində növbədənkənar prezident seçkiləri keçirildi. Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Dövlətimizin başçısı fevralın 14-də andiçmə mərasimindəki nitqində bu barədə bildirdi: “Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi”.



Zənnimizcə, növbədənkənar prezident seçkiləri kimi növbədənkənar parlament seçkilərinin də başlıca əlamətdar cəhəti onun bütün ölkə ərazisində keçirilməsidir. Bu, əslində, tarixi hadisədir.



Bəs seçkilərin hazırlanıb keçirilməsi istiqamətində dairə seçki komissiyalarında işlər necə gedir? Seçkilərin azad, ədalətli və şəffaf şəkildə baş tutması üçün hansı addımlar atılır? Bu və digər suallarla 11 saylı Binəqədi-Qaradağ dairə seçki komissiyasının (DSK) sədri Nəbi Xəlilovla həmsöhbət olduq.

***–Nəbi müəllim, əvvəlcə istərdik ki, rəhbərlik etdiyiniz DSK-da seçki prosesinin gedişi ilə bağlı bir qədər məlumat verəsiniz...***

–11 saylı Binəqədi-Qaradağ seçki dairəsi öz işini Seçki Məcəlləsinin tələblərinə, Mərkəzi Seçki Komissiyasının 2024-cü il iyunun 29-da keçirilən iclasında təsdiq etdiyi Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına, eləcə də digər təlimatlara və hüquqi aktlara uyğun olaraq qurur. Proses nəzərdə tutulan ardıcıllıqla həyata keçirilir. Bilirsiniz ki, 2024-cü il avqustun 2-si, saat 18:00-da namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyalarına təqdimedilmə müddəti başa çatıb. Hazırda imza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb-alınmaması haqqında qərarın qəbul edilməsi prosesi gedir. Bu proses sənədlər qəbul edildikdən sonra 7 gün müddətində həyata keçirilir. Avqustun 9-dək təqdim edilmiş sənədlərə baxıb qeydiyyat prosesini tamamlayacağıq.

***–Təqdim edilən imza vərəqlərində və digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması işi necə gedir? Bu prosesdə hansı prinsiplər əsas götürülür?***

–Bununla bağlı ekspertlərdən ibarət işçi qrupu yaradılıb. Qərar verilərkən işçi qrupunun rəyi əsas götürülür. Eyni zamanda, biz namizədliyi təsdiq olunmuş şəxsin daşınar və daşınmaz əmlakı, gəlirləri ilə bağlı bir sıra dövlət orqanlarına sorğular göndəririk. Bundan sonra dairə seçki komissiyasının iclası keçirilir. Aldığımız məlumatlar əsasında və işçi qrupunun rəyi əsas götürülməklə yekun qərarımızı veririk.

***–11 saylı Binəqədi-Qaradağ seçki dairəsi özündə neçə seçki məntəqəsini birləşdirir?***

–Dairə ərazisində 43 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Onlardan 23 məntəqə Binəqədi, 20 məntəqə isə Qaradağ rayonlarının ərazisindədir.

***–Bəs seçki yarışına maraq necədir?***

–Bilirsiniz ki, qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısı Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermə gününə azı 20 gün qalanadək, yəni avqustun 12-dək dərc ediləcəkdir. Bu baxımdan prosesin tam yekunlaşmasını gözləyək. Həmin tarixdən sonra 11 saylı Binəqədi-Qaradağ seçki dairəsi üzrə də neçə namizədin qeydə alındığı, dairənin seçkilərə neçə namizədlə getdiyi məlum olacaq. Ümumiyyətlə isə qeyd edim ki, bizim dairə üzrə də seçki prosesinə maraq böyükdür.

***–Təqvim planına görə, seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün səsvermə gününə azı 30 gün qalanadək, yəni avqustun 2-dək müvafiq yerlər müəyyənləşdirilməlidir. Bununla bağlı nə deyə bilərsiniz?***

–Təşviqat materiallarının yerləşdirilməsi üçün nəzərdə tutulan lövhələr hazırdır. Təbliğat-təşviqat kampaniyası üçün lazımi şərait yaradılıb. Seçki məntəqələrinin özündə də seçkiyə hazırlıq işi tam yekunlaşıb. Məntəqələr seçki keçirməyə hazır vəziyyətdədir.

***–Bütövlükdə, seçkilərin azad və ədalətli keçirilməsi üçün indi hansı işlər görülür?***

–Bunun üçün qeydə alınan namizədlərə bərabər şərait yaradılır. Onların təbliğat-təşviqatı üçün də, seçicilərlə qapalı və açıq yerlərdə görüşlərinin keçirilməsi məqsədilə də yerlər ayrılıb. Namizədlər arasında mübarizənin ədalətli getməsi üçün dairə ərazisində hər bir şərait yaradılıb.

***–Vətəndaşlar dairə seçki komissiyasına onların seçki hüququ ilə, məsələn adlarının seçici siyahısında olub-olmaması, qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin alınması ilə bağlı müraciətlər edirlərmi?***

–Bəli, seçici siyahıları bizə ilkin olaraq, Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunub. Biz onları məntəqə seçki komissiyalarına paylamışıq. Siyahılar məntəqə seçki komissiyalarında asılıb. Vətəndaşlar maraqlanaraq orada adlarını yoxlayırlar. Həmçinin, məntəqə seçki komissiyaları ərazidə qeydiyyatda olan seçicilərin adlarının seçici siyahısında olub-olmamasını dəqiqləşdirərək bizə gündəlik əsasda məlumatlar çatdırırlar. Biz də onun əsasında mərkəzləşmiş qaydada dairə seçki komissiyasında seçici siyahılarının dəqiqləşdirilməsi işini mütəmadi olaraq davam etdiririk.

***–Adətən, seçkilərə hazırlığın gedişində nöqsanların, çatışmazlıqların üzə çıxması da təbiidir...***

–İndiyədək hansısa ciddi bir çatışmazlıqla, problemlərlə rastlaşmamışıq. Mənə elə gəlir ki, işimizi, inşallah, bu qaydada, yəni Təqvim Planına və təlimatlara uyğun həyata keçirsək, qarşıdakı dövrdə də hansısa problemlə qarşılaşmarıq. Əgər hansısa çatışmazlıq, nöqsan olarsa, biz onu yerindəcə, operativ qaydada həll etməyə hazırıq.

***–11 saylı dairənin ərazisində qeydiyyatda olan ən yaşlı və 1 sentyabr seçkilərində ilk dəfə səs verəcək seçicilərlə bağlı statistik məlumatlar necədir?***

–Hazırda dairə ərazisində yaşı yüzdən yuxarı olan seçici yoxdur. Yaşlı bir seçici bizə müraciət edib ki, qeydiyyatda olduğu məntəqədə səs verə bilməyəcək. Onun yaşadığı yer digər məntəqənin ərazisindədir. Biz ona qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi verəcəyik. Evinə yaxın olan məntəqənin ərazisində səs verməsi üçün həmin seçiciyə şərait yaradılacaq.

İlk dəfə səs verən seçicilərin sayı isə 138 nəfərdir.

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ-nin Ermənistana hərbi yardımı nəyə xidmət edir?

**“Flightradar” qlobal uçuş izləmə xidmətinin məlumatına görə, avqustun 2 və 3-də ABŞ-ın Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə enib. Caliber.az-ın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, ABŞ silahlı qüvvələrinə məxsus “Boeing C-17” hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilib.**



Aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar – snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnika gətirilib. Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatları çatdırılıb.

Caliber.az-ın əldə etdiyi məlumata görə, bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib, bundan sonra Ermənistan tərəfi silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib.

Daha sonra, yuxarıda qeyd etdiyimiz kimi, ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli-miqdarda silah və sursat gətirilib. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir. Bu zaman Aİ missiyasının Azərbaycan ordusunun mövqeləri ilə bağlı topladığı kəşfiyyat məlumatlarından istifadə edilib.

Caliber.az onu da öyrənib ki, iki təyyarədən birində İran ərazisindən buraxılan raketlərin və digər təyyarələrin trayektoriyalarını izləyən xüsusi alətlər olub. Bu zaman İran ərazisindən İsrailə mümkün hücum riski xüsusilə nəzərə alınıb. Gətirilən qurğular Ermənistanın İranla sərhədində yerləşdiriləcək.

Ancaq bu hamısı deyil. ABŞ təbii ki, bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfərlik heyət də göndərib. Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər diqqətlə seçilib. Onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməni əsilli ABŞ vətəndaşlarıdır, həmçinin postsovet ölkələrindən ABŞ-a köçmüş slavyan və qafqazlı şəxslərdir. Şəxsi heyət Ermənistan silahlı qüvvələrinin geyim forması ilə təchiz olunub və Ermənistan hərbçilərinin Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

Maraqlıdır, bir tərəfdən sülhə çağırış edən ABŞ-ın, digər tərəfdən Ermənistanı gizli şəkildə ölümcül sulaharla təmin etməsinin arxasında nə dayanır? ABŞ başa düşürmü ki, Azərbaycan hərbçiləri bu silah və sursatlardan istifadə edilərək öldürülərsə, o zaman Vaşinqton buna görə birbaşa məsuliyyət daşıyacaq?

***XQ***

# “Qaçqınkom”un sədri vətəndaşlarla görüşüb



**Avqustun 6-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.**

Görüşdə iştirak edən vətəndaşların müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Vətəndaşlara bildirilib ki, müraciətləri və qaldırdıqları məsələlər araşdırılacaq, qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

***XQ***

# FHN təlim keçirib

**Fövqəladə Hallar Nazirliyinin Şimal Regional Mərkəzi tərəfindən 2024-cü ilin hazırlıq planına uyğun olaraq təlim keçirilib.**



Təlimdə FHN-in regionda fəaliyyət göstərən yerli qurumlarının xilasediciləri iştirak edib.

Təlimin keçirilməsində məqsəd fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili səviyyəsinin daha da yüksəldilməsi, xilasetmə əməliyyatlarına cəlb olunan əməkdaşların nəzəri və praktiki biliklərinin artırılması, hündürmərtəbəli binalardan, mürəkkəb relyefli ərazilərdən, habelə suda boğulma təhlükəsində olan zərərçəkmişlərin təxliyəsi üzrə şəxsi heyətin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsindən ibarət olub.

***XQ***

# “Ehtiyat zabit hazırlığı”

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində növbəti “Ehtiyat zabit hazırlığı” kursunun başa çatması münasibətilə mərasim keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, mərasimdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

Kursu bitirən hərbi qulluqçular təhsil müddətində onlar üçün yaradılan şərait və təhsil prosesindən razılıqlarını bildirib, göstərilən etimadı doğrultmaq üçün qazandıqları bilik və bacarıqları gələcək xidmətlərində inamla tətbiq edəcəklərinə, Azərbaycan Ordusunun hərbi qulluqçusu adını şərəflə daşıyacaqlarına söz veriblər.

***XQ***

# Müasir mərhələdə dövlət–elm münasibətləri

**II MƏQALƏ**

**Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Strateji məqsəd

Ulu öndərin yetmişinci illərdə elmlə bağlı atdığı addımlar aydın göstərir ki, Heydər Əliyev qarşısına respublikanın inkişafında və yeniləşməsində elmin əsaslı rol oynamasını həyata keçirmək məqsədini qoymuşdu. Həmin mərhələdə Azərbaycan SSR üçün neft, kimya, texnika, sənaye, kənd təsərrüfatı istiqamətləri həlledici rol oynayırdı. Çünki bir sıra dairələrin Azərbaycana qarşı tutduğu qərəzli mövqe ilə respublikanın sərbəst, uğurlu idarə edilməsinə və inkişaf edə biləcəyinə şübhələr oyatmağa çalışırdılar.

Heydər Əliyev buna qarşılıq, bütövlükdə, Azərbaycan SSR-in elmi əsasda inkişaf etdirilməsi kursunu seçmiş və bunun üçün ilk növbədə Elmlər Akademiyasının fəaliyyətini həmin məcraya yönəltmişdir. Neft, kimya, iqtisadiyyat üzrə apardığı yenidən təşkilatlanma və funksionallaşma buna xidmət edirdi. Çox qısa müddətdə bu istiqamətdə ciddi uğurlar əldə edildi. Və I məqalədə vurğuladığımız kimi, dövlət-elm münasibətləri konsepsiya səviyyəsinə yüksəldildi ki, burada mərkəzi yeri azərbaycançılıq tuturdu.

## Dövlət və cəmiyyətin elmi təməli

Ən böyük uğur isə Elmlər Akademiyasının Azərbaycan Respublikası və cəmiyyətinin inkişafında aparıcı rol oynaması əsasında ölkənin tərəqqisinin elmi məcrada aparılmasına nail olmaqdan ibarət idi. AMEA-nın keçmiş prezidentlərindən olan, akademik Mahmud Kərimov yazırdı ki, Heydər Əliyevin müdrik siyasətinin dərinliyi elmi prinsiplərə əsaslanması və intellektual potensiala arxalanmasında idi. “O, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə görürdü”. Buna görədir ki, Ulu öndər ikinci dəfə xalqın təkidi ilə hakimiyyətə gələndə Bakıda ilk görüş yeri kimi AMEA-nı seçdi. Bu, sovet dönəmindən başlayaraq dövlət və cəmiyyətin inkişafının sütunu kimi elmi görməsi ilə bağlı idi.

Bunlara görədir ki, Elmlər Akademiyası struktur cəhətdən və funksional olaraq daha da təkmilləşdi, araşdırmalar daha fokuslanmış şəkil və məqsədyönlü xarakter aldı. EA-nın cəmiyyətdə statusu isə ən yüksək səviyyəyə qalxdı. Baş elmi strukturun əməkdaşlarına xüsusi hörmət və qayğı yarandı. Heydər Əliyevin gərgin zəhməti və məharətli strateji kursu ilə Azərbaycanda inkişafı tam olaraq elmi rels üzərinə keçirildi. Bu kontekstdə Heydər Əliyevin dövlət–elm münasibətlərinin müasir tələblərə uyğun formalaşdırılmasında özünü göstərən iki mühüm məqamı da vurğulamaq lazımdır.

## Dövlət–elm münasibətlərinin 2 amili

Onlardan biri Ulu öndərin həmin dövrdə ictimai və humanitar elmlərin inkişafına Azərbaycana xidmət istiqamətində böyük diqqət yetirməsidir. Digəri isə Elmlər Akademiyasının sovetlərin verdiyi imkanlar daxilində beynəlxalq elmi dairələrlə əlaqəsini genişləndirmək, onu gücləndirmək və faktiki olaraq Azərbaycanın maraqlarına uyğun yenidən təşkilatlandırmaq idi.

Humanitar və ictimai elmlərin inkişafını Heydər Əliyev birbaşa azərbaycançılığın təmin edilməsinə yönəltmişdi. Bunu, təbii ki, üstüörtülü edirdi və belə də olmalı idi. Heydər Əliyev Elmlər Akdemiyasına bu prosesdə ayrıca yer vermişdi. Nümunə kimi, 1969-cu ildə Heydər Əliyevin "Azərbaycanda tarix və mədəniyyət abidələrinin SSRİ-nin əsas muzeyləri vasitəsilə təbliğ edilməsinin yaxşılaşdırılması tədbirləri haqqında" və 1972-ci ildə "Respublikada toponimiya tədqiqatlarının inkişaf etdirilməsi haqqında" verdiyi sərəncamları göstərə bilərik.

Bundan başqa, Ulu öndər görkəmli Azərbaycan şair, yazıçı və elm xadimlərinin yubileylərinin mütəmadi keçirilməsi ilə bağlı sərəncamlar vermişdir. Həmin sırada müxtəlif elm sahələrində çalışmış Azərbaycan alimlərinin yubileyləri təşkil edilmişdir. Bu proses qısa zamanda Azərbaycanda müxtəlif elm sahələrində məktəblərin yaranmasına gətirib çıxarmışdır. Bütün bunlar yekun olaraq isə sovetlərin sərt məhdudiyyətləri şəraitində “akademik elmin azərbaycançılıq istiqamətində səfərbər olmasına şərait yaratmışdır” (İsa Həbibbəyli).

İkinci məqam EA-nın beynəlxalq əlaqələrinin müstəqil şəkildə həyata keçirilməsi ilə bağlıdır. 1973-cü il sentyabrın 25-də "Xarici ölkələrlə elmi-texniki nailiyyətlərin mübadiləsinin genişləndirilməsi haqqında" qərar çıxarılmışdır. Həmin sənəd əsasında 1974-cü ildə EA-da xarici əlaqələr şöbəsi yaradılmışdır. Bununla iki imkan meydana gəlmişdir. Birincisi, Azərbaycan EA-nın Moskva vasitəsilə xaricə çıxış etmək asılılığına son qoyulmuşdur. İkincisi, Azərbaycan ən yeni elmi nailiyyətlərlə tanış olmaq üçün birbaşa mexanizmə sahib olmuşdur.

Bu bağlılıqda 1974-cü il avqustun 1-də Heydər Əliyev Azərbaycan KP MK və Nazirlər Sovetinin iclasında "Molekulyar biologiya və molekulyar genetikanın inkişafının sürətləndirilməsi və nailiyyətlərindən xalq təsərrüfatında istifadə edilməsi tədbirləri haqqında" qərarının qəbul edilməsinə nail olması mühüm faktdır. Bununla Azərbaycan EA Qərbdə çox aktual sayılan yeni



elmi araşdırmalara çıxış əldə etmişdir.

Eyni zamanda, Elmlər Akademiyasının Fizika İnstitutundakı Biofizika laboratoriyasının nəzdində Molekulyar biologiya və molekulyar genetika sektoru yaradılmışdır. Bu işlərin davamı olaraq 1978-ci il martın 25-də "Azərbaycan SSR Elmlər Akademiyasında təbii resursların, kosmik tədqiqatlar sahəsində işlərin daha da inkişaf etdirilməsi haqqında" qərar qəbul edilməsi ilə radiofizika, radiotexnika istiqamətləri üzrə elmi araşdırmaların yolu açılmışdır.

## Kosmik fəzanın tədqiqi

Elmin cəmiyyətin və dövlətin inkişafına xidmət etməsi istiqamətində Heydər Əliyevin həyata keçirdiyi ardıcıl tədbirlər sırasında EA-da kosmik tədqiqatlara və hərbi-sənaye kompleksinin inkişafına istiqamətlənmiş addımların atılması xüsusi yer tutur. Çünki keçən əsrin 70–80-ci illərində kosmik fəzanın tədqiqi, peyklərin hazırlanması və orbitə çıxarılması və s. aspektlər üzrə dünyada böyük bir yarış gedirdi. Bu kontekstdə Heydər Əliyevin kosmos və hərbi-sənaye ilə əlaqədar həyata keçirdiyi planlar Azərbaycan SSR-in dünyanın aparıcı elmi proseslərindən uzaq düşməməsini təmin edirdi.

Bu, tarixi və strateji mənası çox yüksək olan bir proses idi. Bunların fonunda 1976-cı il yanvarın 23-də "Azərbaycan SSR Elmlər Akademiyasının elmi-tədqiqatlarının səmərəliliyinin artırılması və onların nəticələrinin milli iqtisadiyyatda tətbiqi üzrə işlərin genişləndirilməsi haqqında" mövzusunda məsələnin müzakirə olunaraq, konkret qərarlar qəbul edilməsi tamamilə məntiqi bir hadisə təsiri bağışlayır. Çünki Heydər Əliyev elmin ayrıca sahə kimi inkişafı ilə alınan elmi nəticələrin cəmiyyətə tətbiqi arasında sıx əlaqə yaradılmasına böyük əhəmiyyət verirdi.

## Yeni mərhələyə hazırlıq

Bu faktlar onu göstərir ki, Heydər Əliyev 1970–1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasını yenidən strukturlaşdıraraq onun funksional imkanlarını daha da genişləndirmişdir. Yeni yaradılan tədqiqat şöbələri faktiki olaraq Azərbaycan Elmlər Akademiyasının dünyanın aparıcı elmi araşdırmalara birbaşa çıxışını təmin etmişdir. Bu proseslərin başlıca məqsədi isə elmi Azərbaycan dövlətçiliyi və cəmiyyətinin inkişafına xidmət etməyə istiqamətləndirməkdən ibarət olmuşdur.

Ulu öndər buna yüksək səviyyədə nail olmuşdur. Bu tezisi Azərbaycan Respublikasının müstəqillik dövründə AMEA-nın fəaliyyətinə verdiyi qiymət və onun əldə etdiyi elmi nailiyyətlərin dövlətçiliyə xidmətin təminatı təsdiq edir. O cümlədən, indiki mərhələdə AMEA-nın Azərbaycanın strateji inkişaf kursunda mühüm rol oynamasının ciddi ənənəyə malik olduğunu görürük.

Heydər Əliyevin dövlət–elm münasibətlərini konsepsiya səviyyəsinə yüksəltməsi bir sıra yeni prinsiplərin həyata keçirilməsi baxımından da çox əhəmiyyətli idi. Yuxarıdakı təsvirdən aydın olur ki, Ulu öndər elmi Azərbaycan dövlətçiliyi, cəmiyyəti, mənəvi-əxlaqi dəyərlərinin bünövrəsi kimi görürdü. Bu zaman elmin dövlətçiliyə xidməti ön plana çıxarılırdı. Onun reallaşması mexanizmi kimi isə azərbaycançılıq aparıcı rol oynamalı idi. Yəni elmi tədqiqatlar Azərbaycan iqtisadiyyatı, sosial mühiti və mədəni həyatının inkişafına xidmət etməli idi.

Bu məqsədə nail olmaqda Ulu öndər EA-ya böyük önəm verirdi. Bu məqsədlə dövlətçilik kontekstində ölkənin ali təşkilatında struktur yenilikləri edilirdi. Bunun fonunda elmi fəaliyyətin təşkili və səmərəliyi məsələsi aktuallaşdırılırdı. Nəhayət, alınan nəticələrin praktikaya tətbiqinə ciddi əhəmiyyət verilirdi. Bütün bunların fonunda Heydər Əliyevin sovet dönəmində indki AMEA-nın beynəlxalq əməkdaşlıq sistemini qurması böyük önəm kəsb edirdi.

Vurğulanan məqamları ümumiləşdirsək, maraqlı mənzərə alınır. Sovet dönəmində Heydər Əliyev dövlət–elm münasibətlərini həm yaşadığı mərhələdə respublikanın inkişafına xidmət edən, həm də müstəqil dövlət olanda onun inkişafı üçün elmi əsasları yarada bilən dinamik sistem səviyyəsində qurmuşdur. Bu sistemin mərkəzində elmin azərbaycançılığa xidməti dayanırdı. Başlıca icraedici təşkilat kimi indiki AMEA görülürdü. Qarşıya qoyulan məqsədə çatmaq üçün isə Elmlər Akademiyasında struktur dəyişikliyi edilir və paralel olaraq, elmi fəaliyyətin təşkili yeniləşirdi.

Aydın hiss olunur ki, bütün bunlar Heydər Əliyevin uzaqgörən elm siyasətinin konkret mərhələsini təşkil edir. Sovet dönəmində Azərbaycan elminin dövlətçiliyə və azərbaycançılığa xidmət istiqamətinə yönəldilməsi stratejidə müstəqil dövlət quruculuğunun tam olaraq elmi əsasa söykənməsinin şərtlərindən biri idi. Bu da faktiki olaraq, Azərbaycan dövlətçiliyi və elm münasibətlərində yeni mərhələnin təməlinin qoyulması deməkdir.

Müasirlik baxımından burada Heydər Əliyevin dövlət–elm münasibətləri konsepsiyasının çox əhəmiyyətli bir özəlliyini vurğulamaq gərəkdir. Ulu öndər dövlətin elmə və elm adamlarına daim böyük diqqət və qayğı göstərməsinin zəruriliyini vurğulayırdı. Məhz bunun nəticəsində Azərbaycanda elmə və elm adamlarına böyük sayğılı münasibət formalaşmışdı. Heydər Əliyev elm adamlarını ciddi surətdə qoruyur, onlara böyük şanslar verirdi. İndiki AMEA dövlətin strateji orqanı kimi diqqət mərkəzində idi. Onun maliyyələşməsi o dövrdə ən yüksək səviyyədə təşkil olunurdu. Alimlər birmənalı olaraq cəmiyyətin elitası idi.

Bu həqiqətlər Heydər Əliyevin dövlət–elm münasibətlərinə həm də sosial müstəvidə yeni məna və məzmun verdiyini təsdiq edir. Bununla Ulu öndər sovet dönəmində dövlət–elm münasibətlərini yaradıcılıq, təşkilatçılıq və sosial-mədəni mühitlə sıx əlaqələrin sintezində qura bilmişdir. Məsələnin digər aspekti isə indiki AMEA-nın beynəlxalq əlaqələrinin dövrə görə, geniş miqyasda qurulması ilə bağlıdır. Bütün bunlar sistem halında Heydər Əliyevin faktiki olaraq dövlət–elm münasibətlərini yeni mərhələyə hazırladığı anlamına gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır

### *“Armenizm”in “andranikizm”, “tsexakronizm”, “erməni fədaizmi”, “erməni faşizmi” kimi “izmlər”i bəşəri təhlükə saçır*

**Hər bir cəmiyyətin öz milli kimliyinə söykənən bəlli bir ideologiyasını meydana gətirməsi, formalaşdırması üçün onun müəyyən mərhələlərdən keçməsi labüddür. Həmin ideologiyanı-siyasi və sosial bir təlim olaraq meydana gətirən səbəblər və siyasi - ictimai hərəkat kimi ortaya qoyduğu düşüncə, inanc və görüşlər sistemi sağlam olmalıdır. Əks–təqdirdə, o, bir cəmiyyətə, bir dövrə, ya da ictimai bir sinifə xas inanclar sistemi olaraq, özü ilə təməl problemlər yarada bilər. İlkin halda öz cəmiyyətinə, daha sonra isə bütün bəşəriyyətə ziyan yetirə bilər. Erməni düşüncə sisteminin ortaya çıxma və formalaşma mərhələlərini araşdırarkən qarşıya çıxan gerçəklik budur ki, bütün dövrlərdə o zərərli tendensiyaları ilə seçilmişdir. Millətlərin öz yaranma şərtləri və bir- biri ilə əlaqələrindən doğan həyat tərzləri ilə əlaqədar siyasi və ictimai dizaynların hamısını onun müəyyən zaman içində yaranmış ideologiyalarda axtarmağın doğru olmadığını iddia edənlər var. Onlar haqlı ola bilərlər, amma ayrılıqda götürülən toplumlarda müəyyən ideoloji düşüncə onun özünün xarakterindən asılı olur.**

Bir də nəzərə almaq lazımdır ki, ideologiyanı həm də konkret şəxslər formalaşdırırlar. Tarixə baxsaq, ermənilərdə bu ideoloji hərəkatı aparan şəxslər daha çox cinayətkarlardır. Onlar hədəfə çatmaq vasitəsi kimi ölüm və qanı seçdiklərindən ortaya atdıqları milli təlim də bəlalar gətirmişdir. Bu mənada qədimdən bəri ideoloji hərəkat halına gətirilən armenizm (ermənilik) bəşəri ideologiya sayıla bilməz.

Armenizmi erməni tarixi və mədəniyyətindən fərqli düşünmək, xristian ideologiyasının ruhunun xaricində görmək olmaz. Ermənilərin, hətta dinlərini belə bəzən irqçi düşüncələrə qurban verdikləri zamanlar olmuşdur. “Ermənilik dindən əvvəldir”, – deyən Njde bu düşüncədə olmuşdur ki, xristian dini belə erməni ideallarının həyata keçirilməsində vasitədir.

Bəllidir ki, bilgi və inanclar sistemi kimi ermənilik də irqçi ideologiya ilə yüklü olmuşdur və özünü qoruma istiqamətində bütün tarixi dövrlərdə inkişaf yolu keçmişdir. Yəni, zaman irəlilədikcə onun mahiyyətində irqçilik, başqa xalqlara yuxarıdan aşağı baxmaq, hədəfə çatmaq üçün insanları terrorizə etmək, onları fiziki cəhətdən məhv etməyə meyillənmək özünü göstərmişdir. Ermənilərin yaratdıqları əksər siyasi və qeyri – siyasi təşkilatların mayasında bu vardır. Erməni tarixçilərinin özləri də bu cəhəti qeyd etməkdədirlər. Tarix boyunca bu ideologiyanı erməni millətinin dövlət anlayışı kimi formalaşdırmağa meyilli qüvvələr də olmuşdur və bu gün də vardır. Ermənilərin tarixdə heç bir dövrdə tam müstəqil dövlətləri olmadığından ideologiyalarını bu əsas üzərində–hər şeyi başqalarından mənimsəmə prinsipi üzərində qurmuşlar və millət olaraq öz milli kimliyini ayaqda tutmaq üçün yaratdıqları yeni düşüncə sistemlərini də bu əsas üzərində formalaşdırmışlar.

Ermənilikdən bəşəriyyət üçün çox təhlükəli olan “andranikizm”, “tsexakronizm”,“erməni fədaizmi”, “erməni faşizmi” və digər “izmlər” törəmişdir. Ermənistandakı irqçilər gendən gələn, keçmiş xüsusiyyətlərin bioloji olaraq insan davranışına hopmasına inanan kəslərdir. Erməni irqçilik doktrinası insanın daşıdığı qanın milli-etnik şəxsiyyətini təyin etdiyi iddiasındadır. Erməni faşizmində insan irqlərinin rəng və fiziki şəkilləri əsas alınaraq, bir-birindən üstünlüyünü öndə görən irqçilik fəlsəfəsini mənimsəmiş şəxslərə üstünlük verilir. Hayastanda bu gün başqa ölkələrdə terrorçu hesab olunan şəxslər – başda Andranik Ozanyan olmaqla, Stepan Şaumyan, Dro, Njde, Soğomon Tehleryan, Varujan Karapetyan, Monte Melkonyan, Vazgen Sislyan, Vazgen Sarkisyan və başqaları qəhrəman hesab olunur. İrqçi insanların göstərmiş olduğu bu tutuma isə “irqçilik” adı verilməkdədir ki, onlar özlərindən olmayanların fiziki məhvinə çalışmış və bunu göz qırpmadan, digərinin halına acımadan etmişlər.



Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan özü də həmin şovinist ruhlu sistemin içində yetişən adam, Azərbaycana qarşı yaradılmış “Qarabağ” Komitəsinin rəhbərlərindən olsa da sonralar ölkəsində irqçiliyin tüğyan etdiyini dəfələrlə qeyd etmiş və bunun erməni millətini məhvə aparacağını demişdi: “…Ermənilər inandılar ki, əgər Almaniya bir müharibə başlasa, o zaman bu mütləq Türkiyəyə qarşı da olacaq, Njdenin tək bir məqsədi var idi: Türkiyəyə qarşı nə isə etmək və ona qarşı döyüşəcək güclü tərəfin yanında olmaq. 1927-ci ildən bəri onun təlimində iki söz ortaya çıxdı: etnik ayrı–seçkilik və “Tsexakronizm–irqçilik” ... O deyir ki, çox təəssüf ki, biz bu məfhumların heç birindən imtina edə bilmirik. Çünki bunlar müasir Ermənistanın həyat tərzinə çevrilib.

Bugünkü Ermənistan Respublikasının rəsmi ideologiyası ermənilikdir. Onlar buna “hayutyun” deyirlər. Elmi ədəbiyyatda onu “armenizm” də adlandırırlar. Bir çox araşdırmaçılara görə ermənilik erməni toplumu üçün o qədər də mükəmməl ideologiya sayıla bilməz. İdeologiyanı konkret şəxslər formalaşdırır və sonra toplumun malı edirlər. Artıq Sivaslı Mxitar, Artsruni dövrü keçib. Ermənistan dövlətinin başında olan adamlar açıq deyirlər ki, bizim ideologiyamız Andranik Ozanyanın mübarizəsinə söykənir və Qaregin Njdenin yaratdığı təlimlə şəkillənir. Haqlıdırlar, uzun illər ermənilər andranikizm ideologiyası ilə nəfəs almışlar. Njdenin ötən əsrin 30-cu illərində yaratdığı və faşizmə söykədiyi “Tsexakronutyun” adlanan təliminin Ermənistan Respublikasının son 25-30 il rəsmi dövlət ideologiyası kimi qəbul edilməsi onu göstərdi ki, hələ erməni millətinin ciddi, bəşər humanizminə dayanan ideologiyası yoxdur. Bu iki şəxsin türk millətinə necə bir düşmənlik etdiklərini bütün dünya bilir. Deməli, “türk düşmənçiliyi” elə ideologiyanın da əsasıdır. Erməni təfəkkürü bu düşmənçiliyin gətirdiyi fəlsəfə ilə ideal seçir.

Ermənilər üçün “Vətənin xilaskarı”, bizim üçün isə bir faşist, türk düşməni olan Njde “Həbsdən məktublar”ında erməni millətinin mövqeyini müəyyənləşdirmişdi: “Kim Türkiyə ilə bərabərsə o mənim millətimin və tarixi ərazi haqqımızın düşmənidir. Elə bir düşməndir ki, heç bir Tanrı mənimlə onları barışdıra bilməz. Bu mənim siyasi mövqeyimdir”.

Bugünkü erməni cəmiyyəti bu prinsipi özünün həyat kredosu, mübarizə vasitəsi sayır. Bu, həm də, Ermənistan dövlətinin ideoloji xəttidir. Ermənilər həmin xətdən heç cür imtina edə bilmirlər. Çünki bəşəri dəyərləri özündə ehtiva edən ideyaya sahib deyillər. Belə bir ideya isə heç zaman olmamışdır. Artıq qeyd etdik ki, Serj Sarkisyanın başçılıq etdiyi Respublikaçılar partiyasının rəsmi ideologiyası Njdenin irəli sürdüyü təlim–“Tsexakronizm” idi. Partiyanın emblemi də tsexakronçularla faşistlərin ortaq emblemi idi. Ondan əvvəlki hakimiyyətlərin də hədəfindəki düşmən “türklər”, yəni Azərbaycanda, Türkiyədə və ya başqa bir yerlərdə yaşayan insanlar olmuşdur.

Buna görə də Ermənistanda təbliğat və rəsmi ideologiya səviyyəsində hökm sürən, belə demək mümkünsə, azərbaycanafobiya haqqında danışarkən, əsas tonun məmurlar tərəfindən qoyulduğuna diqqət çəkmək lazımdır: millət vəkilləri, dövlət adamları, ölkə prezidentinə qədər müxtəlif səviyyəli məmurlar Azərbaycana nifrət toxumlarını səpməkdə davam edirlər. Hər gün Ermənistan mətbuatı Azərbaycanı ləkələmək, onun yaxşı işini belə pisləməklə məşğuldur. Ermənistan alimləri, politoloqları Azərbaycanı ittiham etmək üçün yarışa durmuşlar.

Ermənistan adlı ölkədə, Azərbaycana nifrət hisslərinin əsas tədarükçüsü və qanunvericisi isə rəsmi dövlət orqanlarıdır, dövlətin yürütdüyü siyasətdir. Bunun özü isə ənənəvi tarixi düşmənçiliyə söykənən bir təbliğat vasitəsidir. O, artıq neçə əsrdir ki, dəyişmir. Maraqlıdır ki, onların zehinlərində və hərəkətlərində heç bir utanc hissi yoxdur – Azərbaycan və Türkiyəyə qarşı təcavüz və dözümsüzlüyü yayan insanlar burada ən hörmətli adamlar sayılır, “millətin qaymaqları” hesab edilirlər.

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***“XQ”-nin Türkiyə müxbiri***

# Azərbaycanın investisiya məkanı dünyaya açıqdır

## Son 5 ildə milli iqtisadiyyata yatırılan xarici sərmayə 26,5 milyard dollara çatıb

**Media Təhlil Mərkəzinin (MTM) rəsmi məlumatlar əsasında apardığı təhlilə görə, son 5 ildə xarici ölkələrdən Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi 26,53 milyard dollar təşkil edib. Bu məbləğin 48,7 faizi son 2 ildə yatırılan birbaşa xarici investisiyaların payına düşüb.**



Təhlildə qeyd edilib ki, 2022-ci ildə ölkə iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcmi 30,9 faiz artaraq 6,3 milyard dollara çatmışdısa, ötən il bu rəqəm 2022-ci il ilə müqayisədə 6,1 faiz artaraq 6,66 milyard dollar təşkil edib. Buna səbəb Vətən müharibəsi dövrünün sona çatması, düşməndən təmizlənən ərazilərin təhlükəsizliyinin qorunması və həmin torpaqlara yeni investisiyaların cəlb olunmasıdır.

Aparılan təhlilə əsasən, Birləşmiş Krallıq 5 ildir ki, Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların siyahısına liderlik edir. Bu ölkə keçən il respublika iqtisadiyyatına 1,86 milyard dollar investisiya qoyub.

Hesabat dövründə respublikamıza ən çox investisiya yatıran ikinci dövlət Türkiyə olub. Qardaş ölkədən cəlb olunan birbaşa investisiyaların həcmi 2023-cü ildə 1,3 milyard dollar təşkil edib. Həmin il ilk üçlüyü 791,6 milyon dollar investisiya həcmi ilə Kipr tamamlayıb.

Şimal qonşumuz Rusiyadan ölkəmizə 617,4 milyon dollar, dünyanın əsas iqtisadi gücü olan ABŞ-dan isə cəmi 171,9 milyon dollar birbaşa investisiya cəlb edilib.

Media Təhlil Mərkəzinin araşdırmasında bildirilir ki, Azərbaycan və Gürcüstanın mərkəzi banklarının, Ermənistanın isə Dövlət Statistika Komitəsinin 2023-cü il üçün açıqladığı rəsmi rəqəmlərə görə, bu dövrdə iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyaların həcminə görə, Azərbaycan Cənubi Qafqaz ölkələri arasında böyük fərqlə lider olub. Ötən il Azərbaycanın iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiyaların həcmi 6,66 milyard dollar, Gürcüstana cəlb olunan investisiyaların həcmi 1,6 milyard dollar təşkil edib. Yəni 2023-cü ildə Azərbaycana cəlb edilən xarici investisiyaların həcmi qonşu ölkə ilə müqayisədə 4,2 dəfə çox olub.

Ermənistana isə ötən il cəmi 502,7 milyon dollar xarici investisiya yatırılıb və ölkə Gürcüstandan 3,2 dəfə, Azərbaycandan isə 13,2 dəfə geri qalıb.

2023-cü ildə Azərbaycandan Gürcüstanın iqtisadiyyatına birbaşa yatırılan investisiyanın həcmi 87,2 milyon dollar təşkil edib. Gürcüstanın Azərbaycan iqtisadiyyatına yatırdığı birbaşa investisiyasının həcmi isə 39,6 milyon dollar olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadənin bildirdiyinə görə, bu ilin yanvar-mart aylarında Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artaraq 1,5 milyard ABŞ dolları səviyyəsinə çatıb. Bu dövrdə birbaşa xarici investisiyaların ÜDM-ə nisbəti 8,8 faiz, qeyri-neft-qaz birbaşa xarici investisiyaların qeyri-neft-qaz ÜDM-ə nisbəti isə 1,7 faiz təşkil edib.

Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyanın 12,4 faizi qeyri-neft-qaz sektorunun payına düşür. I rübdə ölkəmizə ən çox birbaşa xarici investisiyanı Böyük Krallıq (443,2 milyon ABŞ dolları), Türkiyə (261,4 milyon ABŞ dolları), BƏƏ (190,7 milyon ABŞ dolları) yatırıb.

Göründüyü kimi, ölkəmizə xarici sərmayə yatırımı davamlı olaraq artır. Bu, Böyük Britaniyanın "FDI Intelligence" nəşrinin 2023-cü ildə ən çox birbaşa xarici investisiyalar yatırılan şəhərlərin TOP 100 reytinqində də aydın nəzərə çarpır. Həmin reytinq sıralamasında Bakı 3-cü yerdə qərarlaşır.

Nəşrin qeyd etdiyinə görə, Azərbaycana birbaşa xarici investisiya yatırılması ilə bağlı ötən il əldə edilmiş razılaşmalar 2017-ci ildən sonrakı dövrdə ən irihəcmli layihələrdir. Bir neçə mühüm logistika layihələri ilə yanaşı, 2023-cü ildə Bakıya təkcə Macarıstanın "Hell Group" şirkəti tərəfindən 211 milyon dollar sərmayə qoyulacağına dair saziş imzalanması da bunun bariz ifadəsidir.

Azərbaycana birbaşa xarici investisiya yatırılması ilə bağlı diqqət çəkən göstəricilər barədə rəy bildirən ekspertlər vurğulayırlar ki, respublikamız dünya miqyasında investisiya üçün cəlbedici dövlət statusunu gündən-günə gücləndirir. Ölkədə yaradılan siyasi - iqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti istənilən layihənin uğurla həyata keçirilməsini gerçəkləşdirir. Başqa sözlə, respublikada biznes mühitinin ardıcıl optimallaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, yeni çağırışlara uyğun qərarların qəbul edilməsi davamlı birbaşa xarici investisiya qoyuluşunu şərtləndirir.

Azərbaycan hökuməti ölkənin investisiya cəlbediciliyini artırmaq üçün islahatlar çərçivəsində institusional bazanı daim optimallaşdırır. Belə ki, dövlətə məxsus şirkət və müəssisələrin, habelə dövlət payına malik sahibkarlıq subyektlərinin vahid prinsiplər əsasında idarə edilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərir. Adı çəkilən Yol Xəritəsinin müvafiq hədəflərini reallaşdırmaqla biznes mühitinin səmərəliliyinin artırılması istiqamətində orta müddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqini, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsini, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsini gerçəkləşdirir.

Azərbaycanın bir sıra regional və qlobal layihələrdə sərmayədar kimi indiki rolu isə onu mühüm geosiyasi oyunçuya, eləcə də beynəlxalq imicə malik bir ölkəyə çevirib. Respublikamızın bir sıra regional və qlobal layihələrdə investor kimi iştirak etməsi onu mühüm geosiyasi oyunçuya çevirib. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri də daxil olmaqla 4 layihədə iştirakı səmərəliliyi ilə fərqlənib.

Bundan əlavə, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və ölkəmizin bu təşəbbüslərdə fəaliyyəti yüksək dəyərləndirilən Şahdəniz-2, Cənub Qaz Dəhlizi, TANAP və TAP bir müddət əvvəl uğurla tamamlanıb. Əsas investor kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici iqtisadiyyata investisiyaların həcminə görə, MDB məkanının aparıcı dövlətlərindən biri kimi qeydə alınıb. Dünyanın aparıcı iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarına görə, ölkəmiz regionun coğrafi investisiya mərkəzinə çevrilib.

Hazırda rəsmi Bakı işğaldan azad edilmiş ərazilərə xarici investorların cəlbi istiqamətində fəal iş aparır, bir sıra ölkələr ərazilərin bərpasında və infrastruktur layihələrinin həyata keçirilməsində fəal iştirak edir.

# Odlar yurdu Orta Dəhlizin baş qovşağıdır

**Qırğızıstan mətbuatında yayılan məlumata görə, bu ölkənin xarici işlər naziri Jeenbek Kulubayev rəhbərlik etdiyi qurumun yarımillik fəaliyyətinin yekunlarına həsr olunan mətbuat konfransında Orta Dəhlizin Avropaya yüklərin tranziti üçün alternativ marşrut kimi nəzərdən keçirildiyini bildirib. O, Rusiya dəhlizinin bağlanması ilə yüklərin Avropaya daşınması və tranzitinin xeyli çətinləşdiyini, bu gün bütün yüklərin cənub dəhlizindən keçdiyini vurğulayıb.**




J.Kulubayev hazırda yüklərin əvvəlcə İrana, oradan Türkiyəyə, daha sonra Avropaya, əks istiqamətdə isə analoji marşrutla göndərildiyini, bununla belə daşınma prosesini sürətləndirə biləcək alternativ yolların nəzərdən keçirildiyini, həmin variantlardan birinin isə Qazaxıstan, Türkmənistan, Azərbaycan və Qafqazdan keçən Orta Dəhliz olduğunu diqqətə çatdırıb.

Onun sözlərinə görə, bu layihələr avropalı tərəfdaşlar və Mərkəzi Asiya ölkələri ilə fəal şəkildə müzakirə olunur: "Tərəfdaşlar regionda daşıma prosesini asanlaşdırmaq və ticarəti artırmaq üçün bu istiqamətdə birgə işləməyə hazırdırlar. Bu, həm də uzaq tərəfdaşlardan investisiya cəlb etməyə imkan verə bilər. Bu platformanın istifadəsi həm Mərkəzi Asiya ölkələri, həm də Qırğızıstan üçün faydalıdır, çünki vahid bazar kimi çıxış etməyə və regionun birgə inkişafına kömək etməyə imkan verir".

Qeyd edək ki, Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Avropa ölkələrinə qədər uzanır. 2023-cü ildə bu marşrutla 2,7 milyon ton yük (2022-ci ilə nisbətən 86 faiz çox) daşınıb, 2024-cü ildə yük axını 4 milyon tonu ötə bilər.

Böyük Britaniyanın Azərbaycan, Qazaxıstan və Qırğızıstandakı keçmiş səfiri Ceyms Şarp da ölkə mediasına müsahibəsində Azərbaycanın Orta Dəhliz üzrə açar rolu oynadığını qeyd edib: "Orta Dəhlizin modernləşdirilməsini dəstəkləyəcək regional iqtisadi inkişaf sadəcə xammalın ixracının asanlaşdırılması ilə bağlı deyil, bu marşrut həm də diversifikasiya olunan, əlavə dəyər gətirən iqtisadiyyat yaratmaq üçün mühüm önəm daşıyır. Burada mərkəzlərin xüsusi üstünlüyü var. Qədim İpək Yolunun dərslərindən biri də odur ki, marşrut boyunca yerləşən qovşaqlar mühüm ticarət mərkəzlərinə çevrilir. Fikrimcə, Orta Dəhlizin ən əhəmiyyətli qovşağı Ələt qəsəbəsində yerləşən limandır. Bu infrastruktur Orta Dəhlizdə əsas qovşaqdır. Bütün marşrutlar oradan keçir və bu, belə unikal mövqedə olan yeganə yerdir. Üstəlik, Rusiya və İran arasında Şimal–Cənub dəhlizinin marşrutu üzərində yerləşir".

Keçmiş səfir qeyd edib ki, Ukraynada müharibə başlayandan bəri Avropada Rusiya üzərindən yüklərin daşınmasına münasibətdə ciddi dəyişiklik baş verib. Bu, Orta Dəhlizə, daha dəqiq desək, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna marağın yenidən artmasına səbəb olub. Maraqlıdır ki, Orta Dəhlizə marağı artıran təkcə Ukraynadakı müharibə deyil. Husilərin kommersiya gəmilərinə qarşı raket və pilotsuz təyyarələr atdığı Qırmızı dənizdə baş verən hadisələr də hökumətləri və şirkətləri nəqliyyat marşrutlarının şaxələndirilməsi zərurətindən xəbərdar edib. Düşünürəm ki, Asiya ilə Avropanı birləşdirən əlavə yol kimi Orta Dəhlizə investisiya qoyuluşunun məntiqli olmasının bir neçə səbəbi var. Təbii ki, Orta Dəhliz digər marşrutları əvəz etməyəcək, lakin alternativ marşrutu dəyərləndirəcək.

Diplomat hesab edir ki, marşrutun inkişafı üçün həm investisiya, həm də əməkdaşlıq lazımdır. Həm "sərt birləşmə", həm də "yumşaq birləşmə" adlandırıla bilən problemlər var. "Hard coupling" dəmir yolu xətlərinin tikintisi və ya modernləşdirilməsi, vaqonların və liman infrastrukturunun satın alınması kimi məsələləri əhatə edir. "Yumşaq ünsiyyət" daha çox gömrük prosedurları ilə bağlıdır. Ümumiyyətlə, "sərt birləşmə" investisiya, "yumşaq birləşmə" isə əməkdaşlıq tələb edir. İnvestisiya baxımından bu, mütləq baş verir. Belə ki, bu ilin əvvəlində Avropa İttifaqı "Global Gateway" toplantısı keçirib və bu toplantıda təxminən 10 milyard avro vəsaitin ayrıldığını elan edib. Beləliklə, əməkdaşlıq baxımından biz artıq regional hökumətlərin və təşkilatların Dünya Bankı və AYİB hesabatlarında qaldırılan məsələləri həll etməyə başladığını görürük.

Sonda qeyd edək ki, cari ilin ilk yarısında yanvar-iyun aylarında Orta Dəhlizlə 2,1 milyon ton yükdaşımaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 65 faiz artaraq 2,1 milyon ton olub. 2023-cü ildə bu marşrutla yükdaşımaların həcmi 2022-ci illə müqayisədə yenə də 65 faiz artaraq 2,7 milyon ton təşkil edib.

Yeri gəlmişkən, Dünya Bankının hesabatında 2030-cu ilə qədər Orta Dəhliz boyunca daşımaların həcminin 2021-ci illə müqayisədə 3 dəfə artacağı və yüklərin daşıma müddətini 2 dəfə azalacağı proqnozlaşdırılır. Eyni zamanda, investisiya və əməliyyat təkmilləşdirmələrinin düzgün kombinasiyası vasitəsilə bu dəhlizin transkontinental ticarətin iqtisadi və siyasi davamlılığına əhəmiyyətli töhfə verə biləcəyi bildirilir. Bundan başqa, adıçəkilən layihə dəniz limanlarına çıxış vasitəsilə Çinə, Avropaya və dünyanın digər regionlarına etibarlı marşrutu gerçəkləşdirməklə Mərkəzi Asiya və Cənubi Qafqazın potensialının inkişafını şərtləndirir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən Orta Dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi kimi Orta Dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də bu dəhliz üzrə tranzit müddətinin 2024-cü ildə 18–23 gündən 14–18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.



# Kürdəmirin işıq şəbəkəsi yenilənir

**Kürdəmir rayonunun 7 kəndinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsi məqsədilə elektrik şəbəkəsi yenilənir.**

"Azərişıq" ASC-dən aldığımız məlumata görə, rayonun Axtaçı, Axtaçı Qarabucaq, Pirəköcə, Xəlsə, Qocalı və Hacımustafalı kəndlərində 0,4 və 10 kV-luq elektrik xətləri və dayaqlar yenilənib, köhnə tipli transformator məntəqələri yeni güc mərkəzləri ilə əvəz olunub. Ümumilikdə, həmin kəndlərdə 16 komplekt transformator məntəqəsi (KTM), həmçinin, yeni SMS tipli sayğaclar quraşdırılıb.

500-dən çox abonentin yaşadığı Muradxan kəndində də elektrik şəbəkəsi tamamilə yenilənir. Görülən işlər çərçivəsində kənddə yeni güc mərkəzi – 14 KTM quraşdırılır. Kənddə yeni 0,4 və 10 kV-luq elektrik xətləri çəkilir, dayaqlar basdırılır.

Yenidənqurma işlərinə cəlb olunan kəndlərdə 1000-ə yaxın abonent dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunacaq. "Azərişıq" ASC İnvestisiya Proqramına uyğun olaraq mərhələli şəkildə ölkənin digər regionlarında, bir sıra kənd və qəsəbələrdə də yenidənqurma işlərini davam etdirir.

# Özəl sektorda əmək müqavilələri 79 faiz artıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində etdiyi paylaşımda son 5 ildə qeyri-neft sektorunun özəl bölməsində daimi əmək müqavilələrinin sayının 79 faiz artdığını bildirib.**

Nazır daha sonra həmin göstəricinin 426 min yeni əmək müqaviləsi faktını ifadə etdiyini, yeni müəssisələrin fəaliyyətə başlaması, investisiya təşviqi çərçivəsində həyata keçirilən layihələr və təşviq əsaslı vergi siyasətinin nəticəsi olduğunu vurğulayıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# COP29 ekoloji mübarizənin önəmli mərhələsi olacaq

**Bu gün bəşəriyyətin üzləşdiyi iqlim dəyişikliyi problemi inkişaf etməkdə olan dövlətlərdə dağıdıcı nəticələrə səbəb olmaqla yanaşı, onilliklər ərzində qlobal inkişaf çərçivəsində reallaşan uğurlar üçün də təhlükə yaradır.**

Artan geosiyasi gərginliklər və beynəlxalq müstəvidə müşahidə olunan qeyri-müəyyənliklər fonunda çağdaş dünyamızın ən böyük transmilli probleminə çevrilən iqlim dəyişikliyi ilə mübarizədə ölkələrin hansı səviyyədə inkişaf etməsindən asılı olmayaraq birgə əməkdaşlığına zəruri ehtiyac duyulur. Ona görə də bu mübarizədə müştərək öhdəlik, mənəvi borc və dayanıqlı inkişaf kimi prinsiplər dünyanın yararlanacağı fürsət kimi qəbul edilir.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, COP29 həm Paris Sazişi, həm də qlobal iqlim tədbirləri və əməkdaşlığı üçün bir sınaq olacaq. Azərbaycanın noyabrda evsahibliyi edəcəyi konfransda da əsas diqqət iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinə (NCQG) yönəldiləcək. Şübhəsiz ki, bu zaman 1,5°C hədəfi diqqətdə saxlanılacaq və COP28-in nəticələrini barədə ətraflı danışılacaq. Bir sözlə, COP29 bu məsələri əhatə etməklə şəffaf, obyektiv, inkluziv və tərəflərin idarə etdiyi şəkildə həyata keçiriləcək, 1,5°C hədəfinə hamılıqla nail olmaq üçün bir çox kəsişən müstəvilərdə birgə və ahəngdar iş nümayiş etdiriləcək.

Şübhəsiz ki, COP29-a evshibliyi edən Azərbaycan iqlimlə bağlı müzakirələrə daha çox diqqətlə yanaşacaq, qlobal, regional, milli və sub-milli qrupları da bu prosesə cəlb etmək, dayanıqlı inkişafı hərtərəfli nəzərdən keçirmək və inklüziv nəticələri gerçəkləşdirən inklüziv proses çərçivəsində bütün demoqrafik qruplara həssas münasibət göstərəcək.

Azərbaycanın COP29-a evshibliyi edəcəyi qərarı verilən ilk günlərdən ölkəmizdə ən ümdə prioritetin iqlim maliyyəsi olduğu bildirilib və iqlim fəaliyyətinin uğurla yerinə yetirilməsində etimad və həmrəyliyin əldə olunması, eləcə də mövcud sahədə inkişaf tempinin artırılması kimi əhəmiyyətli prinsiplər önə çəkilib.

Ekspertlərin fikrincə, bütün ölkələr Paris sazişinə uyğun şəkildə və qlobal baxış əsasında mümkün ən yüksək ambisiyaya can atmalıdırlar. İnkişaf etməkdə olan ölkələrə dəstək göstərilməsi isə onları öz fəaliyyətləri çərçivəsində daha yüksək ambisiyalara sövq edəcək. Azərbaycan COP tərəfdaşları ilə birlikdə artıq iqlimlə bağlı ümumi maliyyə daxilolmalarını xeyli artırmalı və inkişaf etməkdə olan ölkələrə zəruri dəstəyi təmin etməlidir.

COP29 sədrliyinin başlıca danışıq prinsipi inkişaf etməkdə olan ölkələrin ehtiyac və prioritetlərini nəzərə alaraq, problemin miqyasına uyğun iqlim maliyyəsi ilə bağlı ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasıdır. Bu sahəyə yönəldilən səylər mövcud olan resursların tam miqyas və potensialını əhatə etməlidir.

Ədalətli və iddialı yeni iqlim maliyyə hədəfini müəyyənləşdirmək, inkişaf etməkdə olan ölkələrin iglim inkişafı gündəliyinin ehtiyaclarını qarşılamaq və Paris Sazişinə olan etimadı bərpa etmək üçün Bakıda keçiriləcək COP29 tədbiri nüfuzlu platforma kimi beynəlxalq aləmdə diqqət çəkəcəyi gözlənilir. İqlim maliyyəsi üzrə hədəfin bu il qəbul edilməsi üçün Böyük İyirmiliyin müstəsna rol oynayacağına da böyük ümid bəslənilir.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol Azərbaycan mediasına müsahibəsində Bakıda keçirilən COP29-da zəngin, eləcə də aşağı gəlirli ölkələrin, həmçinin Şimal və Cənubun iqlim dəyişikliyinin qlobal problemini həll etmək üçün bir araya gəlmələrinin zəruriliyini vurğulayıb.

İcraçı direktor daha sonra COP29 ilə bağlı gözləntilərin hər gün artdığını, ölkələr arasında maliyyələşmə ilə bağlı konsensusa gəlmək kimi bir məqsədin diqqət mərkəzində saxlanıldığını bildirib.

F.Birol qeyd edib ki, COP29-da əsas məqsədlərdən biri metan emissiyalarının azaldılmasına yönəlmiş addımlarda konkret nəticələrə nail olmaq, qlobal akkumulyatorun inkişafına və qlobal şəbəkə hədəfinə nail olmaqdır: “Bunlar iki fərqli istiqamətdir. Birincisi, maliyyələşdirmə ilə bağlı konsensusa nail olmaq cəhdi, ikincisi isə COP28-də əldə edilən uğurun inkişaf edilməsidir. Hazırda biz Bakıda növbəti konkret hansı məqsədlərin razılaşdırıla biləcəyini müzakirə etməyə hazırlaşırıq. Tədbirdən bir müddət əvvəl Beynəlxalq Enerji Agentliyi COP28-in necə irəlilədiyi və bu tendensiyaların daha davamlı olması üçün COP29-da nə edilməli olduğu barədə hesabat təqdim etməyə hazırlaşır”.

İcraçı direktorun belə bir fikir bildirməsinə səbəb COP28-in bərpaolunan enerji tutumunun üçqat artırılması və ikiqat enerji səmərəliliyi haqqında qərarının icrası ilə bağlıdır. Eyni zamanda, enerji sistemlərini təhlükəsiz etmək və batareyalar, şəbəkələr və hansı əlavə konkret tədbirlərin lazım olduğunu müəyyənləşdirməklə iqlim məqsədlərini reallaşdırmaq yolunda uğurlu addımlar atmaqdır.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru hesab edir ki, iqlim maliyyəsi bütün problemlərin “sinir mərkəzi”dir: “Cari il dünyada təmiz enerjinin maliyyələşdirilməsinə, təxminən, 2 trilyon dollar sərmayə qoyulacaq. Bu, kifayət qədər yaxşı göstərici olmasa da, ümüdvericidir. Problem isə ondadır ki, bu 2 trilyon dolların, təxminən, 85 faizi inkişaf etmiş iqtisadiyyatlara və Çinə yatırılır. Yalnız 15 faizi dünya əhalisinin üçdə ikisindən çoxunun yaşadığı inkişaf etməkdə olan ölkələrə sərmayə qoyulur. Deməli, burada ciddi problem var. Buna görə də tərəflərin inkişaf etməkdə olan ölkələr üçün təmiz enerjinin maliyyələşdirilməsinə zəmanət verməyə razılaşdıqları bir mexanizm hazırlanmalıdır. Bu, gerçəkləşdirilməsə, iqlimlə bağlı məqsədlərə çatmaq şansı olmayacaq”.




F.Birolun bu fikrinə əsaslanıb demək olar ki, təkcə inkişaf etmiş iqtisadiyyatlarda və Çində iqlim maliyyəsini artırmaqla problemləri həll etmək olmaz. Asiya, Afrika və Latın Amerikasında böyük miqdarda emissiya var. Ona görə də həm COP29-da, həm də COP30-da maliyyələşdirməyə diqqət yetirilməlidir.

Ümumiyyətlə, bütün ölkələr yeni milli səviyyədə töhfələr verməli, 2035-ci ilə qədər nə edəcəklərini bildirməli, qlobal istiləşməni 1,5 dərəcə Selsi səviyyəsində saxlamaq məqsədinə çatmaq üçün kifayət qədər iddialı olmalıdırlar.

Şübhəsiz ki, COP29 bu məsələdə mühüm rol oynayacaq. Məhz buna görə, Beynəlxalq Enerji Agentliyi milli səviyyədə müəyyən olunan töhfələri inkişaf etdirmək üçün tərəflər arasında səmərəli müzakirələri gerçəkləşdirmək üçün COP29 Sədrliyini dəstəkləmək qərarına gəlib.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru sonda qeyd edib ki, COP29-da zəngin, eləcə də aşağı gəlirli ölkələrin, Şimal və Cənubun iqlim dəyişikliyi kimi qlobal bir problemin öhdəsindən gəlmək üçün onların bir araya gəlməsini görmək istəyir: “Bu, dünyaya bir çağırışdır. Əgər biz geosiyasi parçalanmaları, fikir ayrılıqlarını bir kənara qoyub diqqəti qlobal məsələyə yönəldə və bəzi konkret qərarlar qəbul edib konkret məqsədlər üzərində razılaşa bilsək, COP29 tarixdə uğurlu mərhələ kimi yadda qalacaq”.

**XQ**

# Ölkəmizin iqlim strategiyası dünyaya nümunədir

**Azərbaycanın COP29-a sədrliyinin əsas məqsədi iqlim dəyişmələri ilə mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün bütün tərəflərin ehtiyaclarına cavab verən aydın və iddialı "Yeni Kollektiv Kəmiyyət Məqsədi" formalaşdırmaqdır. Bunu energetika nazirinin müavini, COP29-un icraçı direktoru Elnur Soltanov İspaniyanın aparıcı "EFE" agentliyinə müsahibəsi zamanı deyib. Azərbaycanın COP29-da ölkənin iqlim dəyişikliyinin qarşısını almaq səyləri ilə bağlı ikiillik şəffaflıq hesabatı və milli səviyyədə müəyyənləşdirilmiş töhfələr təqdim edəcəyini diqqətə çatdıran nazir müavininin sözlərinə görə, respublikamız iqlim dəyişikliyi ilə mübarizə üzrə şəffaf və inklüziv tədbirlərin tərəfdarı olmaqla "yaşıl keçid"lə iqtisadi sabitlik arasında balans yaradır.**



İqlim Dəyişikliyi üzrə Paris Sazişinin bütün istiqamətləri üzrə kollektiv irəliləməyin vacibliyini vurğulayan nazir müavini deyib ki, iqlim maliyyələşdirməsi ilə bağlı fikir ayrılıqlarını aradan qaldırmaq üçün “siyasi istiqamət” axtarılır. “Yüksək səviyyədə müzakirələrə fokuslanmalı və siyasi qarşılıqlı fəaliyyəti gücləndirməliyik”, – deyə E. Soltanov əlavə edib. Onun sözlərinə görə, bütün ölkələr iqlim dəyişikliyi ilə mübarizə yoluna müxtəlif nöqtələrdən başlayır, dekarbonizasiya, bərpaolunan enerji sisteminin qurulması və ədalətli keçidin təmin edilməsinə dair tələblər milli şəraitdən asılı olaraq dəyişəcək.

COP29-un icraçı direktoru, həmçinin deyib ki, iqlim dəyişikliyi üzrə hökumətlərarası ekspertlər qrupu temperatur və sıfır karbon emissiyaları ilə bağlı hesablamalarında karbohidrogenlərin dünya iqtisadiyyatındakı rolunu tanıyır. Azərbaycanın tərəfləri bir araya gətirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayan E. Soltanov bildirib ki, ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına və Paris Sazişinə uyğun olaraq COP29-a inklüzivlik və şəffaflıq şəraitində evsahibliyi etməyə sadiqdir. Onun fikrincə, COP29-a dair görüşlər vədləri yerinə yetirmək və temperaturu 1,5°C çərçivəsində saxlamaq məqsədilə nəticələrə nail olmaq üçün fürsətdir.

**XQ**

# Avstriya İtki və Zərər Fonduna ödənişi artırır



**Avstriyanın inkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşdirməsinin mühüm sütunu olan İqlim Dəyişikliyi üzrə İtki və Zərər Fonduna töhfəsi 15 milyon avro artırılacaq.**

Bu ölkənin “Die Presse” qəzetinin məlumatına əsasən, neft və qazla zəngin Azərbaycanın paytaxtı Bakıda keçiriləcək iqlim konfransına üç ay qalmış Avstriya nümunə göstərərək İtki və Zərər Fonduna töhfəsini 15 milyon avro artıraraq 25 milyona avroya çatdırıb. Vəsait iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərini və iqlimlə bağlı hadisələrin vurduğu geri qaytarıla bilməyən zərərin kompensasiyasını maliyyələşdirmək üçün nəzərdə tutulub.

İqlim böhranının və onun dağıdıcı nəticələrinin bütün dünyada insanlar üçün ciddi təhlükə yaratdığını qeyd edən Avstriyanın İqlim Mühafizəsi, Ətraf Mühit, Enerji, Nəqliyyat, İnnovasiya və Texnologiyalar Nazirliyinin rəhbəri Leonore Gevessler bildirib ki, ölkəsi öz məsuliyyətinə ciddi yanaşır və Qlobal Cənubda yerləşən dövlətlərə dəstək verir.

Ümumilikdə, Avstriya 2023-cü ildən 2027-ci ilə qədər adıçəkilən fonda 50 milyon dollar ayıracağını vəd edib.

İndiyədək iqlim dəyişikliyi ilə mübarizəni dəstəkləmək üçün dünya ölkələri və Avropa İttifaqı (Aİ) tərəfindən İtki və Zərər Fonduna bir neçə yüz milyon dollar ayrılıb. Məsələn, fonda Aİ 225 milyon avro, Almaniya və Birləşmiş Ərəb Əmirlikləri hər biri 100 milyon, Böyük Britaniya 60 milyon və Yaponiya 10 milyon avro vəsait köçürüblər. ABŞ-ın töhfəsi kifayət qədər az olub – cəmi 17,5 milyon dollar. Səbəb yəqin ki, ABŞ administrasiyasının verdiyi bir neçə bəyanatda Vaşinqtonun bu məqsəd üçün ödəmələrin “təzminat” kimi başa düşülməməli olduğunu vurğulamasıdır. Bu tələbi Qlobal Cənub ölkələri illərdir irəli sürürlər. Onların arqumenti budur ki, iqlim böhranı ABŞ və digər sənayeləşmiş ölkələrdə yaranıb, lakin indi bunun nəticələrinin ağır yükünü inkişaf etməkdə olan ölkələr çəkirlər.

**XQ**

# 2030-cu ildə alternativ enerji 35 faizə çatacaq

**Energetika nazirinin müavini Kamal Abbasov mediaya məlumatında bildirib ki, 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmaq hədəflənib: “Lakin enerji keçidinin hazırkı tempində bu pay 2027-ci ilə qədər 32,6 faizə, 2030-cu ilə qədər isə 34,6 faizə çata bilər”.**



Onun sözlərinə görə, hazırda Azərbaycan beynəlxalq enerji şirkətləri ilə daxili istehlak üçün gücü 10 gigavata qədər olan “yaşıl enerji” istehsalını, növbəti onillikdə isə iqtisadiyyatın dekarbonizasiyası və ixrac layihələrinin həyata keçirilməsi istiqamətində əməkdaşlığı nəzərdə tutur.

K. Abbasov əlavə edib ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə də işlər uğurla davam edir: “Bu istiqamətdə növbəti görüşün sentyabrda Buxarestdə keçirilməsi planlaşdırılır. Layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması prosesini 2024-cü ilin sonunadək başa çatdırmaq nəzərdə tutulur. Düşünürük ki, baş ofisi Buxarestdə olacaq birgə müəssisə cari ilin sentyabrında yaradılacaq”.

**XQ**

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*

Mütəxəssis rəyi

# İsti havalar və anaların canlı yükü...

**Yay ilin ən gözəl fəsillərindən biridir. Lakin bu fəslin bəzi günlərində müşahidə edilən həddindən artıq isti hava və rütubətin yüksək olması insanlara, xüsusilə hamilə xanımlara bəzi narahatlıqlar yaradır. Temperaturun yüksəlməsi, havadakı rütubətin dəyişkənliyi, mayenin tər və s. ifraz edilmə yolları ilə itirilməsi, günvurma kimi amillər ana, həm də inkişaf edən dölün sağlamlığına təsir edə bilər. Bu fəsildə həkim tövsiyələrinə riayət edərək, hamilə qadınların isti havalarda sağlam və rahat hamiləlik keçirmələri üçün əlavə tədbirlər görmələri çox vacibdir. Bu məsələlərlə bağlı Azərbaycan Tibb Universiteti II mamalıq-ginekologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Hicran Bağırovanın tövsiyələrini aldıq.**



***– Professor, isti havadan qorunmaq üçün hamilə xanımlar nələrə diqqət etməlidirlər?***

– Hamilə qadınlarda bazal metobolizmin dərəcəsi daha yüksək olduğundan, onlar, xüsusilə də temperatur yüksəlməsinə həssas olurlar. Yay aylarında artan temperatur onlarda şişkinlik, yorğunluq və susuzluq kimi ümumi hamiləlik əlamətlərini gücləndirə bilər. Günvurmanın əsas əlamətlərinə halsızlıq, başgicələnnmə (ağır hallarda huşu getmək), ürəkbulanması, nəbzin yüksəlməsi və s. aiddir. Eyni zamanda, havaların çox isti keçməsi ilə bərabər, qadınlarda aşağı və yuxarı ətraflarda şişkinliklər (ödemlər) yarana bilər. İşləyən hamilə xanımlara, xüsusilə açıq havada olduqları zaman sərin yerdə dincəlmək üçün tez-tez fasilələr verilməsi məsləhət görülür. Havanın daha sərin olduğu səhər erkən və ya axşam saatlarında açıq havada gəzməyi planlaşdırmaq olar. Pik istilik saatlarında, adətən 10–dan 16-ya qədər açıq havada olmaqdan çəkinmək tövsiyə olunur. Mümkün qədər kölgəli və sərin yerlərdə qalmaq, rahat bir mühitdə istirahət etmək hamilə qadının sağlamlığı üçün olduqca vacibdir.



Günəş işığı D vitamini almağın təbii və ən yaxşı mənbəyidir. Hamilə qadınlar üçün bu vitamin son dərəcə mühümdür. Havaların istiləşməsi və günəşli günlərin artması ilə bədən daha çox D vitamini sintez edir. Bu da gələcək ananın və doğulacaq körpənin sağlamlığına öz müsbət təsirini göstərir.

Fiziki fəallıq hamiləlik dövründə qan dövranını yaxşılaşdırır, əzələləri gücləndirir və ümumi sağlamlığa müsbət təsir edir. Təbiətdəki gəzintilər və günəş işığı ananın əhval-ruhiyyəsini yüksəldir, yuxunun keyfiyyətini artırır və depressiya riskini azaldır.

***– Maye qəbulu hamilələr üçün nə dərəcədə lazımdır?***

– Hamilə qadınlarda bədənin su balansını qorumaq çox vacibdir. Çünki az maye qəbulu ana, həm də inkişaf edən döl üçün təhlükə yarada bilər. Anada xroniki yorğunluq, baş ağrısı, halsızlıq, sidik yolları infeksiyası dölətrafı mayeyə neqativ təsir edərək, əlavə risklər yaradır. Nəzərə almaq lazımdır ki, su balansının qorunması hamilə qadına təkcə dölətrafı maye üçün yox, eyni zamanda qadının artan qan dövranına töhvə verir. Mayenin normadan az qəbulu həmçinin erkən doğuş riskini də artıra bilər.

Bütün bu riskləri aradan qaldırmaq üçün minimum maye qəbulu normasına riayət etmək (təxminən 2.5 l), susuzluq hissi yaratdığı üçün şəkərli və kofeinli qidalardan uzaq durmaq, meyvə-tərəvəz qəbulu tövsiyə edilir.

***– Hamilə qadınlar geyim və ümumi gigiyenada nələrə daha çox diqqət etsinlər?***

– Hamilələr bədənlərini sərin tutmağa kömək edən pambıq kimi yüngül, hava keçirən parçalardan tikilmiş geyimlərə üstünlük verməlidirlər. Qızmar yay aylarında bədən temperaturunu tənzimləmək hamilələr üçün, xüsusilə vacibdir. Boş və rahat geyimlər istiliyi tənzimləməyə, dəridə yarana biləcək hər hansı qızartı və sızanaqların qarşısının alınmasına yardım edir.

Hamiləlik dövründə dərinin mübadiləsi daha da aktivləşir. Bu səbəbdən dəri daha çox tər və maye ifraz edir. Bunları aradan qaldırmaq üçün istifadə edilən tər əleyhinə vasitələrin tərkibinin bioloji təmiz olmasına diqqət edilməlidir ki, hamilənin orqanizmi onları aktiv şəkildə mənimsəməsin.

***– Professor, hamilələrə daha nələri tövsiyə edirsiniz?***

– Öncə qidalanmadan başlayaq. Yay istisi iştaha və yemək seçimlərinə təsir edə bilər. Artan hava hərarətinin təsiri ilə iştah azalır. Bununla da, hamilə qadınların orqanizmi üçün lazımı mineral və vitaminlərin qəbulu da çətinləşir. Digər tərəfdən, tər ifrazı bədən üçün lazımlı elektrolitlər olan sodium, potassium və maqneziumu bədəndən xaric edir. Halbuki, bu elektrolitlər maye balansı və əzələ inkişafı üçün çox vacibdir. Hamiləlik zamanı yüngül qidalarla bəslənmək, bol meyvə-tərəvəz qəbul etmək lazımdır.

İştahın bərpası və bədənə lazımı mineral və vitamin ehtiyacını ödəmək üçün yeməklərin az miqdarda və tez-tez qəbulu tövsiyə edilir.

Hamilə qadının gündəlik rasionunda zülallar, karbohidratlar, yağlar, vitaminlər və minerallar olmalıdır. Eyni zamanda, balansı saxlamaq şərtilə mikroelementlərlə zəngin olan giləmeyvələrə üstünlük verilməlidir. Düzgün qidalanmaya məhəl qoymamaq qan azlığı (anemiya), hamiləlik və doğuş sonrası komplikasiyalar (uşağın azçəkili doğulması, inkişafdan qalması və s.) yarada bilər.

Ümumi olaraq, hamiləlik dövrü üçün yay aylarında yuxu və istirahət rejiminə xüsusi diqqət yetirmək, işıqlı və sərin mühitdə orta intensivlikli fiziki aktivlik, mütəmadi olaraq qan təzyiqini yoxlamaq və digər prenatal müayinələrdən keçmək tövsiyə olunur.

Əgər baş dönməsi, ürəkbulanma, ağız quruluğu kimi şikayətlər varsa, deməli, bədən susuz qalıb. Hamiləlik zamanı hər gün 6–8 stəkan maye qəbul etmək olduqca vacibdir. Bəzən hamilə xanımlar tez-tez sidiyə getməkdən sıxıldıqları üçün su içməkdən də qaçırlar. Bu isə, xüsusən də yay aylarında sağlamlıq üçün təhlükəlidir.

Tez-tez duş almaq insanı rahatladır. Bədən temperaturunu normada saxlamaq üçün nə çox isti, nə də çox soyuq su ilə yuyunmaq məsləhət deyil. Günəş altında hərəkət etmək düzgün deyil. Çölə çıxarkən su götürmək lazımdır, əgər isti olarsa, suyu saça və üzə səpmək olar.

Hamiləlik zamanı ayaqların şişməsi olduqca normaldır. İsti yay günlərində şişkin ayaqlarla yaşamaq isə yəqin ki, asan deyil. Buna görə də doğru ayaqqabı seçimi çox vacibdir. Əlavə olaraq oturan və uzanan zaman ayağın altı hündür omalıdır. Bu, qan dövranını normallaşdırıb, rahatlıq hissi yaradır.

Əgər saçınız uzundursa, yay üçün qısa kəsdirə bilərsiniz. Gündəlik saç modeli olaraq isə yığmaq məsləhətdir. Uzun və yana tökülmüş saçlar daha çox tərləməyə səbəb olur.

Yay aylarında saat 11.00 ilə 16.00 arası günəş şüalarının ən təsirli zamanı hesab olunur. Buna görə də həmin vaxt çox yorulmaqdan və gün altında qalmaqdan çəkinmək lazımdır.

Hamiləlik zamanı normal yatmadıqda stress yarana bilir. Çalışmaq lazımdır ki, mümkün qədər erkən yatılsın. Bu, həm sinir həm də yorğunluq üçün çox vacibdir.

***Müsahibəni aldı:***
***Zərifə BƏŞİRQIZI***
**XQ**

# “Çıraq” uşaqlara şəfqət saçır

**“Çıraq” Uşaq İnkişaf Mərkəzi İctimai Birliyi iyun ayından Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Fiziki məhdudiyyətli uşaqların reabilitasiyası” adlı layihənin icrasına başlayıb.**




Təşkilatın sədri Zeynəb Hacıyeva ilə söhbətdə öyrəndik ki, layihənin əsas məqsədi Sumqayıt şəhəri və Corat qəsəbəsindən olan 3–15 yaş arası 20 fiziki məhdudiyyətli uşağa sosial reabilitasiya xidmətləri göstərməklə onların cəmiyyətə inteqrasiyasına dəstək olmaqdır. Layihənin icrasında məkanın Sumqayıt şəhəri ilə yanaşı Corat qəsəbəsi də seçilib. Məqsəd həmin ərazilərdə yaşayan əlilliyi olan uşaqların və ailələrin cəmiyyətdə həyata keçirilən bütün fəaliyyətlərdə iştirakını təmin etmək, əlillik sahəsində insanların iştirakını və məlumatlılıq səviyyəsini artırımaq, bilik və bacarıqlarını inkişaf etdirməkdir.

**Həyata keçirilən layihə ilə bağlı ictimai birliyin sədri Z.Hacıyeva dedi:**

– Layihənin icrası zamanı 50-dən çox fiziki məhdudiyyətli uşağın ailəsi ilə əlaqə saxlanılmışdır. Seçilmiş ailələr əlilliyi olan uşağa sahib olmaqla yanaşı, həm də əhalinin imtiyazlı təbəqəsindəndir. Bu ailələrin bəzisi tək valideynlidir, yəni, ya qəyyumu, ya da himayəçisi var. Bəzisinin əlilliyi və ya xəstəliyi var. Digərinin daimi iş yeri yoxdur, yaxud ailədə 2 və daha çox əlilliyi olan var. Layihənin icrası zamanı təlimlərə uşaq serebral iflicin müxtəlif növlərindən əziyyət çəkən və qismən müəyyən bacarıqları olan uşaqlar cəlb olunmuşdu.

Uşaqlara ixtisaslaşmış pedaqoq və loqoped tərəfindən nəzərdə tutulmuş mövzular əsasında təlimlər keçirildi. Təlimlər sosiallaşma və ünsiyyət, koqnitiv bacarıqlar və təhsil, nitq problemləri və s. sahələri əhatə edirdi. Uşaqlar bu təlimlərə fərdi və qrup şəklində qoşulurdular. Təlimlərdən sonra isə valideynlərlə iş aparıldı.

Layihə həyata keçirilərkən Corat qəsəbəsindən olan 30-dan çox fiziki məhdudiyyətli uşaqların ailələri ilə əlaqə saxlanıldı və onlardan qismən müəyyən bacarıqları olan uşaqlar təlimlərə cəlb olundu.

Z.Hacıyeva, həmçinin bildirdi ki, Corat qəsəbəsinin yerli icra nümayəndəliyi, bələdiyyə, ailə sağlamlıq mərkəzi, mədəniyyət evinin nümayəndələri ilə mütəmadi görüşlər keçirilir.

– Qəsəbədə yaşayan ağır psixoloji gərginliyi olan fiziki məhdudiyyətli uşaqlarla mütəmadi olaraq iş aparmaqla onların cəmiyyətdən təcrid olunmasının qarşısı alınır və müəyyən məşğuliyyətlərə cəlb olunurlar. Bundan başqa, serebral iflicin ağır formasında olan uşaqların valideynlərinə ev şəraitində təlimlər keçilir.

Layihəyə cəlb olunmuş uşaqların bir qismi yeni təhsil ilində 1-ci sinfə gedəcək. Bu uşaqların məktəbdən öncə reabilitasiyaya cəlb olunması onlarda özünəgüvən hissini artırır və təhsildə uğurlu nəticələr əldə etməyə kömək edəcək. Ümumiyyətlə, layihəyə cəlb olunmuş ailələrdəki uşaqların əksəriyyəti yalnız həmişə evdə olan, heç bir yerə çıxışı olmayan uşaqlardır. Layihənin əsas məqsədi də proqrama cəlb olunmuş uşaqlardakı sosiallaşmanı artırmaqla onların cəmiyyətdə iştirakını təmin etməkdir.

***ZH ÜSEYN***
***XQ***

## SOSİAL XƏBƏRLƏR



### Füzulidə növbəti əmək yarmarkası

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, Dövlət Məşğulluq Agentliyi avqustun 6-da Füzuli şəhərində növbəti əmək yarmarkası təşkil edib. Tədbir Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə keçirilib.

İşəgötürənlərin iştirakı ilə keçirilən görüşdə onlara işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən məşğulluq tədbirləri, dəstək layihələri barədə ətraflı təqdimat edilib. Əmək yarmarkasında işsiz və işaxtaran şəxslərə 20 işəgötürən tərəfindən 300-ə yaxın vakansiya təqdim olunub. Müraciət edənlərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb. Sonra onlara agentliyin icra etdiyi aktiv məşğulluq proqramları, layihələr barədə ətraflı məlumat verilib.

### Zorakılıq qurbanlarına himayədarlıq

Sosial Xidmətlər Agentliyi bu ilin ötən dövründə məişət zorakılığından zərər çəkmiş 52 nəfəri sosial reabilitasiya xidmətləri ilə təmin edib. Onlardan 30 nəfəri uşaqlardır.

Agentliyin müvafiq müəssisəsində fəaliyyət göstərən məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsində fərdi iş planı üzrə həmin şəxslərin sosial reabilitasiyası, sosial statuslarının bərpası istiqamətində işlər aparılıb.

2021-ci ildə fəaliyyətə başlayan şöbədə müasir tələbələrə uyğun şərait yaradılıb. Şöbəyə qəbul edilən şəxslərin ilkin tibbi müayinəsi, psixoloji-emosional vəziyyətinin qiymətləndirilməsi, hüquqlarının müdafiəsi, onların mədəni-asudə vaxtının təşkili və s. üçün tədbirlər görülür.

Hazırda qeyd edilən şöbədə 6-sı uşaq olmaqla 10 şəxsə xidmətlər göstərilir.

### Əlil gənclər əməyə hazırlanır




Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzində hazırda 160-dək gəncə peşə və sosial reabilitasiya xidmətləri göstərilir.

Onlardan 112-si müxtəlif peşələr üzrə hazırlıq kurslarında bilik və bacarıqlara yiyələnir, 50-yə yaxın şəxs isə sosial reabilitasiya xidmətlərinə cəlb olunub.

Ümumilikdə, bu il əlilliyi olan 333, ötən dövrdə isə 3 min 268 gənc mərkəzin xidmətlərindən yararlanıb. Mərkəzə qəbul olunanlar burada dövlət hesabına yataqxana və yeməklə də təmin olunurlar. Burada peşə və sosial reabilitasiya xidmətlərinə cəlb edilmiş gənclər digər ölkələrdəki müvafiq peşə dərnəklərinə və təcrübə proqramlarına da göndərilirlər. Cari ildə mərkəzdən 20-dək gənc bu proqramlara cəlb edilib.

### Məşğulluğa dəstək kursları




Dövlət Məşğulluq Agentliyi 600 şəxsi peşə hazırlıq kurslarına cəlb edib. Onlardan 300 nəfərinə agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı Mərkəzlərində, qalanları üçün özəl tədris müəssisələrində peşə kursları təşkil edilib.

İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan kurslarda ərzaq və qeyri-ərzaq mallarının satıcısı, mühasib, sosial media mütəxəssisi, tikiş avadanlıqlarının operatoru, tikişçi, aşpaz, dərzi, elektrik qaz qaynaqçısı və s. peşələr üzrə nəzəri biliklər tədris edilməklə yanaşı, müəssisələrdə təcrübə keçmək imkanı da yaradılıb.

Kursların sonunda məzunlara sertifikatlar təqdim ediləcək və onların işlə təmin olunmalarına dəstək göstəriləcək.

### Yeni peşə və ixtisas standartları

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən onu da bildiriblər ki, qurum bu il daha 170 peşə və ixtisas standartı hazırlayaraq təsdiq edib. İlin sonunadək daha 100-ə yaxın standartın hazırlanıb təsdiqlənməsi nəzərdə tutulub.

Peşə standartları konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmunu və əmək şəraiti ilə bağlı minimum tələblərin məcmusu, kvalifikasiya standartı isə kvalifikasiyalar üzrə tələb olunan səriştələri, təlim nəticələrini və qiymətləndirmə meyarlarını əhatə edir. Əmək bazarının tələblərinə uyğun kadr hazırlığında, işçi qüvvəsinin keyfiyyətinin artırılması və beynəlxalq standartlara uyğunlaşdırılmasında həmin standartlar əsas baza hesab edilir.

Son 5 ildə 1200-ə yaxın peşə və kvalifikasiya standartı hazırlanaraq təsdiqlənib və e-sosial.az portalındakı “Peşə və Kvalifikasiya Standartlarının Reyestri”ndə yerləşdirilib.

***ZB AYRAM***
***XQ***

# Borçalı uşaqlarının yay düşərgəsi



**Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Tbilisi “Alyans” Gənclər Mərkəzi"nin təşkilatçılığı ilə Gürcüstanın Telavi şəhərində keçirilən 3 günlük "Həmrəylik 2024 - yay düşərgəsi" başa çatıb.**

Düşərgə iştirakçıları ilk gün şəhərin tarixi yerlərini və "Telavi Tarixi Muzeyi"ni ziyarət ediblər. Sonra gənclərə "Pineo Medical Ecosystem" klinikasının lektoru və kardioloqu Linda Mustafayeva "Ürək, risk faktorları və xəstəlikləri" adlı təlim keçib, sağlam həyat tərzi barədə məlumat verib. Nutricioloq Şahəndə Süleymanova isə “Düzgün qidalanma və zərərli vərdişlər” mövzusunda bilgi verib.

"Həmrəylik 2024 - yay düşərgəsi"nə Marneuli, Dmanisi, Bolnisi, Qardabani, Saqareco və Tbilisidən 70 nəfərdən çox yeniyetmə, gənc və QHT rəhbərləri iştirak edib.

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin məsul işçisi Şəfəq Binnətova bildirib ki, artıq ikinci ildir ki, qurumun dəstəyi və Gürcüstanda fəaliyyət göstərən icma təşkilatlarının iştirakı ilə yay düşərgəsi keçirilir. Tbilisi “Alyans” Gənclər Mərkəzinin təsisçilərindən biri olan Leyla Əmrəhova isə qeyd edib ki, düşərgə çərçivəsində gənclər üçün bir sıra mühüm təlimlər nəzərdə tutulub: “Gələcəkdə də bu kimi proqramlar və tədbirlərin keçirilməsi istiqamətində səylərimizi davam etdirəcəyik".

***XQ***

Qazi qadınlarımız

# Ana Vətən ona oğul deyib

**Mirvarid Dilbazinin belə misraları var:**

***Elə qadınlar da böyüdüb vətən,***
***Günahdır onlara kişi deməsəm.***

Mənə elə gəlir ki, bu poetik qiymət Birinci Qarabağ müharibəsinin iştirakçısı, Müdafiə Nazairliyinin Bərdə özünümüdafiə batalyonunda sosial müdafiə üzrə ilk qadın komandir müavini kimi şərəfli vəzifə daşımış təqaüdçü polis mayoru Aidə Şirinova haqqındadır.



Sağlığında əfsanəyə, nağıla çevrilən, dastanlaşan, qeyrət və hünərləri ilə tomrislərin, nüşabələrin, burlaxatunların çağdaş varislərindəndir Aidə Şirinova. O, qanlı-qadalı döyüş meydanında Vətən oğullarının, igid dostlarının "qız qardaşı", həm də saçlarını oğlansayağı kəsdirdiyinə görə "Qaqa"sı olub. Bu gün onun günüdür, müdriklik yaşını haqlayıb. 65 illiyini şan-şöhrətlə qarşılayıb.

Bərdə şəhərində doğulub, orada orta məktəbi bitirib. 1976–1981-ci illərdə Bədən Tərbiyəsi İnstitutunda (indiki İdman Akademiyası) ali təhsil alıb. Bərdə Uşaq-Gənclər İdman məktəbində metodist və 2 saylı məktəbdə idman müəllimi işləyib. Qanlı yanvar hadisələrindən, Ermənistanın torpaqlarımıza xaincəsinə təcavüzündən, Xocalı soyqırımından sonra heç kimin, hətta onu yolundan döndərməyə cəhd göstərən anasının sözünə məhəl qoymadan yolunu qətiləşdirib, döyüş meydanına atılıb. Quduz düşmən Qarabağa və ətraf ərazilərə göz dikdiyi illərdə ən qaynar nöqtələrdə olub. Şuşada, Ağdərədə polis şöbələrində çalışıb. Sonra Çaylı əməliyyatından başlanan döyüş yolu Tərtər, Ağdərə, Marquşevan, Marağa, Aşağı və Yuxarı Çaylı, Həsənqaya, Gülüstan, Dəmirçilər, Ortakənd, Vaqauz, Talış, Qasapet, Drambon, Çıldıran kəndlərindən keçib.

"Aslanın erkəyi, dişisi olmaz" deyib qədirbilən babalarımız. O da Azərbaycanın hərb tarixində izi qalan qəhrəman qadınlarımız Salatın Əsgərova, Qaratel Hacımahmudova, Gültəkin Əsgərova kimi Vətəni mərdliklə qoruyub. Aidə Şirinova müsahibələrinin birində deyib: "O vaxt Uzundərədə olan hərbi hospitalda 40 tibb bacısı və həkim çalışırdı. Onlar cəbhədə yaralanan əsgərlərə yardım etməyə getmişdi. Bəzən onlar yaralı əsgərlərə öz qanından qan çəkib vururdular. Qadınların mübarizədə fəallığını görən əsgərlərin ruh yüksəkliyi artırdı və son damla qanlarına kimi döyüşürdülər".

Döyüşçü Aidə xanımın qəlbi həm də ilahi sözlə qoşa vurur, könül duyğularını vətənpərvərlik şeirləri ilə oxucularına çatdırır. "Ey Türk oğlu, qalx ayağa" adlı kitabı da var. Əsas mövzusu Vətəndir, anadır, qəhrəmanlıqdır, düşmənə nifrətdir. Həm silahı, həm də qələmi ilə xalqına xidmət edən xanım döyüşçünün şeirləri hərbi marşlar kimi qanımızı coşdurur. Bu döyüş nəğmələri onun kimliyinin göstəricisidir. Şeirləri həm də öz avtoportretidir:

***Vətən mənə doğul dedi,***
***Anam mənə oğul dedi.***
***Düşmənlərin başı üstə,***
***Şimşək kimi çaxıl, dedi.***

Onu Vətən yetişdirib, sevib-seçib hünər, qəhrəmanlıq meydanına göndərib. Ana Vətənin səsinə səs, harayına hay verən Vətən qızı millətinin üzünü ağ, başını uca edib. Bayrağımızın Qarabağın bütün zirvələrində ucaldılmasını istəyib:

Bu xalq üçün alışıb ürəyindən yananlar,
İstəyi qəlbdə qalıb, qəlbi bərbad olanlar,
Bəsdir tapdaq altında inlədi torpağımız,
Bütöv Azərbaycanda ucalsın bayrağımız!

Böyük Zəfərlə bitən 44 günlük savaşımıza Ali Baş Komandan və Azərbaycan Ordusu "Qarabağ Azərbaycandır!" hayqırtısı ilə nida işarəsi qoydu. Buna ən çox sevinən və öyünməyə haqqı olanlardan biri də gəncliyinin 6 ildən çoxunu ön cəbhədə, soyuq və nəmli səngərlərdə keçirən Aidə Şirinovadır:

***Bütövlükdür Türk davası,***
***Bu savaş yox, qana-qandır,***
***Qarabağ Azərbaycandır!..***
***Son nöqtəmiz İrəvandır,***
***Qarabağ Azərbaycandır!***

Ədəbiyyatımızda Aidə xanımın mənalı ömür, cəsur döyüş yoluna həsr olunmuş əsərlər də var. Ramiz Təmkinin "Bir qız tanıyıram", Məhbubə Ömərin "Qəhrəmanlar döyüşür yurdu yaşatmaq üçün" poemaları, Canalı Mirzəliyevin "Müqəddəs hissin təzahürü" sənədli hekayəsi belə uğurlu nümunələrdir. Məhbubə Ömər poemasında Aidə Şirinovanı "ölümü gözüylə görən şahid, Vətən yolunda canlı şəhid" kimi təqdim edir.

Qəhrəmanımız atəşkəs dövründə neçə il Qaradağ, Nəsimi Rayon Polis İdarələrinin uçot-qeydiyyat, yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölmələrinin inspektoru olub.

Beş il əvvəl Aidə Şirinovanın 60 illiyini Mirbvarid Dilbazi Poeziya Məclisi İB olaraq Atatürk Mərkəzində qeyd etdik. Gördük ki, onunla görüşdən hamı sevinc duyur, fərəhlənir. Ondan da əvvəl Tahir Bağırov adına 59 saylı məktəbdə təşkil edilən mərasim yaddaqalan oldu. O zamanlar hələ əzəli torpaqlarımız işğal altında idi, amma Aidə xanım böyük inamla deyirdi ki, azad Qarabağa mütləq qovuşacağıq. Ömrü bir məktəb olan, Vətənə ömründən ömür xərcləyən Aidə xanıma bu sevinci yaşamaq qismət oldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin, şanlı Ordumuzun, xalqımızın birliyinin sayəsində.

Gününüz mübarək, Aidə Şirin!

***Güllü Eldar TOMARLI,***
***Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin sədri***

# Şəfa qaynaqlarımızın gəl-gəl deyən vədəsidir

*Söhbət termal turizmin imkanlarından gedir*



**Bir çox ölkənin iqtisadiyyatında böyük paya sahib olan gəlir sahələrindən biri də turizm sənayesidir. Turizm bu gün dünyada makro və mikro səviyyələrdə gəlirlərin mənbəyi kimi çıxış edir. Təsadüfi deyil ki, bu sənayeni "yaşlanan dünyanın təzə çiçəyi" adlandırırlar. Bu sektor məşğulluğa təsir baxımından da mühüm vasitə olaraq dəyərləndirilir. Dünya iqtisadiyyatında turizmin gəlir payı 2 trilyon dollardan çox qiymətləndirilir.**

Son illər sürətə inkişaf edən sahələrdən biri də müalicə-sağlamlıq turizmidir. Milyonlarla insan sağlamlığının bərpası məqsədilə hər il müxtəlif ölkələrə səyahət edir. Azərbaycan da bu turizm növünün inkişafı üçün hərtərəfli şəraitə malik relyefdə yerləşir. Bu gün hidromineral ehtiyatlarla zəngin olan ölkəmizdə sanatoriya-kurort sahəsinin inkişafını dünya standartları səviyyəsinə qaldırmaq üçün əlverişli mühit mövcuddur. Bu da milli iqtisadiyyatımıza sanballı töhfə verə bilər.

Müalicə və Termal Turizmə Dəstək Assosiasiyasının sədri, ekspert Ruslan Quliyev ölkəmizdə sağlamlıq turizminin hazırkı vəziyyəti ilə əlaqədar suala münasibət bildirərək söylədi:

– Bu gün sağlamlıq turizminə müxtəlif yanaşmalar var. Bəzi ölkələr bunu prioritet hesab etsələr də, bir neçə ölkə başqa yanaşma ilə təqdim edir. 2017-ci ildən Azərbaycanın da təmsil olunduğu Qlobal Sağlamlıq Turizmi Təşkilatında rotasiya üzrə rəhbərlik ölkəmizə keçmişdi. Deklorasiya qəbul edildikdən sonra sağlamlıq turizminin 8 seqmenti müəyyən olundu. Azərbaycanda hələ sovet dövründən sağlamlıq turizmi mövcud olub. Müasir dövrdə Qarabağ bölgəsində və Şərqi Zəngəzurda da sağlamlıq və tibbi turizmin inkişafı üçün böyük perspektivlər var. Xüsusilə, orada velnes və spa turizminin, eləcə də kulinariya, stomatoloji reabilitasiya, idman və sosial turizmin inkişaf perspektivləri mövcuddur.

Ölkəmizdə sağlamlıq turizmi sahəsində mövcud olan hər bir məhsul unikaldır. Naxçıvanda Duzdağ, Naftalandakı müalicəvi neft, Qalaaltı və Lənkərandakı mineral bulaqlar sağlamlıq turizminin müxtəlif seqmentlərini təmsil edir. Qalaaltı və Lənkəranın suyu Avropa keyfiyyət sertifikatını alıb. Sağlamlıq turizmini inkişaf etdirmək məqsədilə dövlətimiz beynəlxalq platformalarda uğurla təmsil olunur. Naftalan şəhərinin bir neçə istirahət zonası "Eurospa" siyahısına daxil edilib. Bütün bunlar xarici turistləri qəbul edərkən inamı artırır və bu, xidmətlərin keyfiyyət göstəricisidir.

Ekspertin sözlərinə görə, ölkəmiz hələ ki, əcnəbiləri cəlb etmək potensialından tam istifadə etmir. Turistlərin ümumi sayının 2 faizdən az hissəsi müalicə üçün Azərbaycana gəlir ki, bu da digər ölkələrin göstəricilərindən xeyli aşağıdır. Ona görə də Azərbaycanda sağlamlıq turizmi hələ formalaşma mərhələsindədir.

Digər ekspert – Ceyhun Aşurov isə bildirdi ki, ökəmizdə turizm imkanlarını nəzərə alsaq, bu sahənin də inkişaf istiqamətləri üçün yeni layihələrin işlənilməsinə ehtiyac duyulur. Onun sözlərinə görə, Azərbaycanın təklif etdiyi sağlamlıq və tibbi turizm xidmətləri yüksək rentabelliyi ilə seçilir.

– Ölkəyə müalicə məqsədilə gələn əcnəbilər ənənəvi səfər edən turistlərdən daha çox pul xərcləyirlər. Bütün bunları nəzərə alaraq, deyə bilərəm ki, gəlir əldə etmək üçün turizmin bu sahəsi daha əlverişlidir. Ənənəvi turizmdə gəlir orta hesabla adambaşına 1000–1500 dollar ətrafındadırsa, sağlamlıq turizmi üçün gələnlərin xərcləri bundan 6–7 dəfə çoxdur. Yəni 6000–10000 dollararası dəyişir. Burada həkimlərin də bir növ təbliğatına ehtiyac var. Əcnəbilər ölkəyə fərqli həkimlərin reklamı sayəsində gəlirlər. Bizdə sağlamlıq turizmi sahəsindəki xidmətlər keyfiyyətcə heç də geri qalmır, üstəlik, qiymətlər digər ölkələrdən 30-40 faiz daha əlverişlidir. Bəzi yerli klinikalarda ABŞ-ın "JCI" sertifikatı var ki, bu da xarici xəstələr üçün vacibdir. Azərbaycanda müasir avadanlıqlarla təchiz edilmiş çox sayda klinikalar fəaliyyət göstərir. Mövcud vəziyyəti təhlil edərkən bu sahədə uyğunlaşdırılmış işin olmadığını qeyd etmək olar. Lakin hələlik heç bir klinika əcnəbi xəstələrin qəbulu üzrə ixtisaslaşmış mərkəz kimi özünü tam şəkildə göstərə bilmir. Düşünürəm ki, bu sahənin ölkəmizdə daha da dirçəldilməsi üçün beynəlxalq səviyyədə təbliğata ehtiyac vardır.

Ekspert rəylərindən də aydın olur ki, müalicə-sağlamlıq turizminin inkişafı üçün ölkəmizin mövcud potensialından yetərincə istifadə edilmir. Axı, Azərbaycanın əksər guşələrində özünün müalicəvi əhəmiyyəti ilə seçilən çox sayda təbii müalicə ehtiyatları, mineral sular var. Onların bir çoxu hətta dünyada analoqsuz hesab edilir. Buna görə də ümid edirik ki, ölkəmizdəki mineral sulardan müalicə-sağlamlıq məqsədilə daha geniş istifadə edilməsi üçün zəruri tədbirlər görüləcək.

***Ceyhun ALIŞLI***
***XQ***

Yay istirahəti

# Uşaqların çağdaş əyləncə mərkəzi





**Böyük türk şairi Nazim Hikmət uşaqlara yazdığı şeirlərindən birində belə deyib: "Dünyayı verelim çocuklara". O səbəbdən ki, usaq dunyası pak bir aləmdir və bizi səmimiyyətə, unsiyyətə səsləyir. Elə bu ovqatla Bakıdakı "Dəniz mall"ın 5-ci qatında qərarlaşan "Sky park"a daxil olduq və uşaqlar üçün yaradılan şərait bizdə xoş ovqat oyatdı.**

Bu məqamda sevimli şairimiz Abdulla Şaiqin də misralarını xatırladım:

***Doğdu günəş qırmızı,***
***Can gülüm, can-can.***
***Topladı oğlan qızı,***
***Can gülüm, can-can...***

Elə bil, bu gün, bu an üçün qələmə alınmış misralardır. Balacalar günəşli, xoş gündə burada əylənir, yeni dostları ilə ünsiyyətə girirdilər. Qurucusu Ulu öndər Heydər Əliyev olan, dünyaya günəş kimi doğan müstəqil Azərbaycanımızın gələcəyi olan bu uşaqlarla bir arada olmaq, eyni ovqatı paylaşmaq çox xoş idi.

Fürsətdən istifadə edib "Sky zone" şirkətinin direktoru Kamran Əliyevlə söhbətləşdik. Onun sözlərinə görə, bu əyləncə mərkəzi 2021-ci ildən fəaliyyət göstərir və yaş məhdudiyyəti yoxdur. Balacalarla yanaşı, böyüklərin də üz tutdugu əyləncə mərkəzində 5 yaşa qədər uşaqlar valideyn nəzarəti ilə yuxarı yaşlılar isə sərbəst şəkildə oyun meydançalarına daxil ola bilərlər.

Ümumu sahəsi 1000 kvadratmetr olan "Sky park"da qonaqlar multi idman arenası, dırmaşma divarı, maili trambolinlər və döyüş şüası olan köpük çuxuru, ip çuxuru, zipline kimi attraksionlardan istifadə edə bilərlər. Oyun zalına daxil olmaq üçünsə bəzi qaydalara əməl etmək lazımdır: oyun zonasına aksesuarla daxil olmaq olmaz, 1 batutda 1 nəfər tullana bilər və s.

Kamran Əliyev onu da bildirdi ki, "Sky park"da məktəblər, siniflərarası turnirlər, ad günləri həyata keçirilir. Eləcə də turnirlər, kampaniyalar, qiymətlər "Sky park"ın instagram və facebook hesablarında öz əksini tapır.

Söhbət edə-edə uşaqların oyun meydançasında necə həvəslə əyləndiklərini görməmək mümkün deyildi. Əyləncə mərkəzinin ərazisinə aid olan kafedə istirahət edə-edə onların oyunlarını izləyib fərəhlənən valideynlərlə də söhbətləşdik. Onlardan biri – Qazaxıstandan ailəlikcə qonaq gəlmiş Zaur Soltanov qeyd etdi ki, "Sky park" çox yaxşı xidmət, uşaqların zamanı şən keçirməsi və əylənməsi üçün mükəmməl məkan təqdim edir.

Bundan əlavə, "Dəniz mall"da uşaqlar üçün yaradılmış şəhər – Kinderland də fəaliyyət göstərir. 4–14 yaşarası uşaqlar burada 60-dan çox məşğuliyyəti təcrübədən keçirə bilərlər.

***Aynur HİLALİ***

# "Vətən" musiqiçiləri Polşada

**Polşa Mədəniyyət Nazirliyi, Podlaski Mədəniyyət Mərkəzi, Polşa Dövlət Televiziyası, Bialistok radiosu və Bialistok Bələdiyyəsinin təşkilatçılığı ilə "Podlaski Oktawa Kultur" 16-cı Beynəlxalq festivalı keçirilib.**




Musiqi bayramında ölkəmizi Xarı Bülbül Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının nəzdində fəaliyyət göstərən "Vətən" musiqi qrupu təmsil edib. Musiqiçilərimiz – xanəndə Səfalı Mirzəliyev, Ruslan Zərbaliyev (tar), Pərviz Fərhadov (kamança) və Səyyar Teymurov (nağara) Polşanın Bialistok, Kleszczele və Stary Folvark şəhərlərində konsertlər verib, ustad dərsləri keçiblər.

Festival çərçivəsində ən böyük konsert Bialistok şəhərində baş tutub. Təxminən 2000 tamaşaçının qarşısında çıxış edən musiqiçilərimiz əvvəlcə onları polyak dilində salamlayıblar. Tamaşaçılar musiqiçilərimizi ayaq üstə alqışlayıblar. Konsertdən sonra təmsilçilərimiz Polşa Dövlət televiziyasına Azərbaycan muğamı haqqında ətraflı müsahibə veriblər. Musiqiçilərimiz Krakovda da böyük konsert proqramı ilə çıxış ediblər.

Sonda "Vətən" Musiqi qrupunun üzvlərinə diplom və qiymətli hədiyyələr verilib.

***XQ***

# Azərbaycanlı alimin əsəri Almaniyada nəşr olunub

**AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent Səbuhi İbrahimovun "Azərbaycan mətnşünaslığı və Naxçıvan əlyazmaları" monoqrafiyası Almaniyada işıq üzü görüb.**




"LAP LAMBERT" akademik beynəlxalq şirkətinin "GlobeEdit" nəşriyyatında buraxılmış monoqrafiyada Naxçıvana dair milli-mənəvi dəyərlərimizdən olan əlyazma mətnlərinin tədqiqi öz əksini tapıb. Əsərdə həmin mətnlər filoloji istiqamətdə araşdırılır və başlıca amilləri geniş işıqlandırılır. Həmçinin əlyazma nümunələrinin yaradıcıları olmuş xəttatları, miniatürçü rəssamları, nəqqaş-müzəhhibləri və bədii cild ustalarının fəaliyyətləri, həmin dövrlərin tarixi həqiqətləri barədə bilgilər verilib ki, bu da Azərbaycan mətnşünaslıq elminin inkişafı üçün mühüm önəm daşıyır.

Kitab AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 16 may 2024-cü il tarixli protokoluna əsasən nəşrə tövsiyə olunmuşdur. Əsərin baş məsləhətçisi AMEA-nın həqiqi üzvü, professor Teymur Kərimli, elmi məsləhətçisi AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev, elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Samirə Əliyeva, rəyçiləri isə filologiya elmləri doktoru, professor Sənan İbrahimov, fəlsəfə elmləri doktoru, dosent Zəkiyyə Əbilova və filologiya elmləri doktoru, dosent Əzizağa Nəcəfzadədir.

Klassiklərin Naxçıvana dair əlyazma abidələrinin, ayrı-ayrı yüzilliklərdə yaratmış olduqları əsərlərin düzgün elmi mətnlərini tərtib etmək və onları öz müəlliflərinə mənsub etmək, hər şeydən əvvəl ədəbiyyat və mədəniyyət tarixinin düzgün öyrənilməsi deməkdir.

***Kübra VƏLİYEVA,***
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun elmi işçisi***

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası Qərar

**№ 3-27/3-7-12/2024**

**Bakı şəhəri** **22 iyul 2024-cü il**

**"Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 8.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

---

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7 12/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 36.4-cü maddəsinə, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyanın (bundan sonra – Konvensiya) 6 nömrəli Əlavəsinə uyğun olaraq hazırlanmışdır və mülki hava gəmiləri ilə uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatları əks etdirən qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsinə dair qaydaları müəyyən edir.

1.2. Bu Qayda ilə tənzimlənməyən müddəalar Konvensiyanın 6 nömrəli Əlavəsinin tələblərinə uyğun həyata keçirilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda və Konvensiyanın 6 nömrəli Əlavəsində nəzərdə tutulmuş mənaları ifadə edir.

**2. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatların qeydə alınması və qorunması**

2.1. Hava gəmisinin istismarçısı istismar etdiyi hava gəmilərinin uçuş məlumatının qeydiyyatını, uçuş heyətinin kabinəsinin səsyazmasını, uçuş görüntülərinin çəkilişini və məlumat bağlantısını qeydə alan qurğularla (bundan sonra – qurğular) təchiz olunmasını təmin etməlidir.

2.2. Qurğular uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatların qorunub saxlanılmasını və kənar müdaxilədən mühafizəsini, habelə həmin məlumatların bərpası və transkripsiyası (səs qeydlərinin, texniki siqnalların və şifrəli mətnlərin təhlil oluna bilən yazılı mətnə çevrilməsinin) imkanını təmin edəcək şəkildə quraşdırılmalı, eləcə də zərbəyə və yanmaya davamlı olmalıdır.

2.3. Hava gəmisinin istismarçısı qurğulardan əldə olunan məlumatların texniki siqnallardan (şifrəli mətnlərdən) təhlil oluna bilən uçuş parametrlərinə çevrilməsini təmin edir.

2.4. Uçuş müddəti ərzində qurğular işlək olmalı və söndürülməməlidir. Bunun təmin edilməsi üçün istehsalçısı tərəfindən müəyyən edilmiş qaydada bu qurğuların işləkliyinin yoxlanması və onlar vasitəsilə aparılan yazıların keyfiyyətinin qiymətləndirilməsi hava gəmisinin istismarçısı tərəfindən həyata keçirilməlidir.

2.5. Hava gəmisinin istismarçısı qurğuların texniki qulluğunun, sınağının və təmirinin həyata keçirilməsi yolu ilə istismara yararlı vəziyyətdə olmasını təmin etməlidir.

2.6. Hava gəmisinin istismarçısı hava gəmisinin aviasiya hadisəsinə və ya insidentinə məruz qaldığı hallarda qurğuların və uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatları əks etdirən sənədlərin mümkün qorunmasını, həmçinin aviasiya hadisəsi və ya insidenti ilə bağlı araşdırma aparan dövlət qurumlarına təhvil verilənədək mühafizəsini təmin etməlidir.

2.7. Aviasiya hadisəsinin və ya insidentinin baş vermə səbəblərinin aydınlaşdırılması uçuş məlumatının qeydiyyatını, uçuş heyətinin kabinəsinin səsyazmasını və uçuş görüntülərinin çəkilişini qeydə alan qurğular vasitəsilə həyata keçirilir.

2.8. Uçuş görüntülərinin çəkilişini qeydə alan qurğu hər bir görüntünün çəkildiyi məkanı müəyyən etmək üçün Qlobal Yerləşdirmə Sistemi (GPS) qəbuledicisi ilə, məlumat bağlantısını qeydə alan qurğu isə məlumatların xronoloji qeydiyyatı üçün vaxt qeydi (vaxt möhürü) ilə təmin edilir.

2.9. Qurğular vasitəsilə qeydə alınan yazı və görüntülər aviasiya hadisəsinə və ya insidentinə səbəb olan vəziyyətləri, halları və faktları obyektiv və dəqiq müyyənləşdirməyə, habelə təhlil etməyə imkan verir. Bununla yanaşı, uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlər, səs yazıları, habelə əməliyyat təlimatları, uçuş əməliyyatının planı və uçuşların təhlükəsizliyinə dair sənədlər uçuş yollarını yenidən qurmaq, hava hərəkəti nümunələrini təhlil etmək və ümumi aviasiyada təhlükəsizliyi təkmilləşdirmək üçün istifadə edilir.

**3. Qeydə alınan uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatların aviasiya hadisəsi və ya insidentinin araşdırılması zamanı istifadəsi**

3.1. Aviasiya hadisəsi və ya insidentinin araşdırılması zamanı qurğuların oxunması həmin araşdırmanı aparan Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya tərəfindən təxirəsalınmadan təşkil edilməlidir.

3.2. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya araşdırma zamanı qurğuları oxumaq üçün imkanları olmadığı halda aşağıdakılar nəzərə alınmaqla xarici dövlətlərin və beynəlxalq təşkilatların aidiyyəti qurumları tərəfindən yaradılmış imkanlardan istifadəyə yol verilir:

3.2.1. oxuma qurğusunun olması;

3.2.2. oxunuşun vaxtında aparılması;

3.2.3. oxuma qurğusunun olduğu yer.

3.3. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatları əks etdirən qeydlərin, səs yazılarının, habelə əməliyyat təlimatları, uçuş əməliyyatının planı və uçuşların təhlükəsizliyinə dair sənədlərin bərpasına və idarə edilməsinə yalnız aviasiya hadisəsi və ya insidentinin araşdırılması sahəsi üzrə ixtisaslaşmış ekspert və mütəxəssislər cəlb edilməlidir.

3.4. Hava gəmisinin istismarçısı tərəfindən Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyaya təqdim edilən sənədlər elektron formatda, habelə Konvensiyanın 6 nömrəli Əlavəsinin tələblərinə uyğun olmalıdır.

**4. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatların saxlanılması və mühafizəsi**

4.1. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatların (o cümlədən məxfi və ya konfidensial olduqda) saxlanılması və mühafizəsi Azərbaycan Respublikasının "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Kommersiya sirri haqqında", "Milli arxiv fondu haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarına uyğun olaraq təmin edilir.

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi əldə edilməsi məhdudlaşdırılan (məxfi və konfidensial) məlumatlar istisna olmaqla, məlumatların mühafizəsi vəzifəsini mülki aviasiya subyektlərinə ötürə bilər. Mülki aviasiya subyektləri qeyd olunan halda informasiya mühafizəsini həyata keçirəcək şəxsləri həmin Agentlik ilə razılaşdırmaqla müəyyən etməlidirlər.

---

**BEYNƏLXALQ HƏYAT**

# Yaxın Şərq: hərbi qarşıdurma kəskinləşir

**Yaxın Şərq hazırda, sanki, barıt çəlləyinə bənzəyir və üstəlik, bu azmış kimi, regiona müxtəlif dövlətlərdən çoxlu sayda odlu silahlar gətirilir. Görünən budur ki, hamı savaşa hazırlaşır. Müharibələr isə ölüm və dağıntılar gətirir.**



Bölgədə düz 10 aydır ki, HƏMAS yaraqlıları ilə İsrail Ordusu arasında ağır döyüşlər gedir. Regionda daha çox ölkənin birbaşa iştirakı ilə yeni böyük müharibənin başlaya biləcəyi ehtimalı olduqca yüksəkdir.

Regionda anbaan artan eskalasiyanın səbəbi məlumdur. Belə ki, bir neçə gün əvvəl İranın yeni prezidentinin inauqurasiyası başa çatan gecə paytaxt Tehranda HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə raket zərbəsi ilə öldürülüb. İran rəsmiləri buna görə İsraili günahlandırıblar və kəskin cavab tədbirləri görəcəklərini bəyan ediblər.

Nüfuzlu "Axios" portalı dünən amerikalı rəsmi şəxsə istinadən məlumat yayıb ki, ABŞ Müdafiə Nazirliyi yaxın günlərdə "iranyönümlü yaraqlılar" tərəfindən bölgədəki Amerika qüvvələrinə hücumların artacağını gözləyir.

Təsadüfi deyil ki, İsrailin müdafiə naziri Yoav Qalant amerikalı həmkarı Lloyd Ostin ilə Yaxın Şərqdəki vəziyyəti müzakirə edib. İsrail Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında deyilir ki, "israilli nazir amerikalı həmkarını regionda təhlükəsizliklə bağlı vəziyyət, o cümlədən, İrandan gözlənilən potensial təhdidlərdən müdafiə etməyə hazır olması barədə məlumatlandırıb". Y.Qalant həmçinin qarşı tərəfə ölkəsinə verdiyi dəstəyə görə təşəkkür edib.

Dünən "The New York Times" nəşri məlumat yayıb ki, İran İsrail ilə mümkün müharibəyə hazırlıq çərçivəsində Rusiyadan müasir hava hücumlarından müdafiə sistemləri istəyib. Adlarının açıqlanmasını istəməyən İran mənbələri xəbəri təsdiqləyiblər və modern radar və hava hücumundan müdafiə sistemlərinin təchizatının başlandığını bildiriblər.

Qeyd edək ki, avqustun 5-də Rusiyanın Milli Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu İranın eyni adlı qurumunun katibi Əli Əkbər Əhmədianın dəvəti ilə Tehrana səfər edib. Yeri gəlmişkən, S.Şoyqu mediaya açıqlamasında deyib ki, Moskva İranla regional məsələlər üzrə hərtərəfli əməkdaşlığa hazırdır.

Hər şey bəllidir. Rusiya İrana, ABŞ isə yaxın müttəfiqi İsrailə hərbi dəstək verir. Məlum olub ki, ABŞ hərbi gəmiləri və döyüş təyyarələri regionda müharibənin genişlənməsinin qarşısını almaq və ABŞ rəsmilərinin dediyi kimi, "İsrailin müdafiəsi" üçün Yaxın Şərqə yollanıb.

ABŞ, Qərb və İordaniya öz vətəndaşlarını Livanı tərk etməyə çağırıblar. Ağ ev çağırışın İranın İsrailə hərbi hücumu qorxusu fonunda müdafiə xarakteri daşıdığını bildirir.

Bu arada ABŞ Prezidenti Co Bayden ilə İordaniya Kralı II Abdullah arasında telefon danışığı olub. Məlumata görə, liderlər Yaxın Şərq nizamlanmasının perspektivləri, eləcə də regionda atəşkəsin razılaşdırılması, girovların azad edilməsi yolu ilə gərginliyin azaldılması və sair məsələləri müzakirə ediblər. Həmçinin bir sıra ikitərəfli məsələlərə də toxunulub.

Dünən regiondan yayımlanan ən son məlumata görə, İsrail Müdafiə Qüvvələrinin hava hücumundan müdafiə sistemi Livandan sərhədi keçən "şübhəli hava hədəfini" uğurla ələ keçirib. Bu barədə İsrail ordusunun mətbuat xidməti teleqram kanalında məlumat yayıb.

Bildirilir ki, itkilər barədə məlumat yoxdur. Həmçinin vurğulanıb ki, raket hücumu təhlükəsi barədə xəbərdarlıq edən hava hücumu sirenlərinin işə düşməsinə səbəb raket qalıqlarının düşmə təhlükəsi olub.

Biz bu yazının əvvəlində qeyd etdik ki, bu günlərdə regiona çox sayda silahlar gətirilir. Eyni zamanda, hərbi mütəxəssislər bölgəyə daha sıx səfərlər edirlər. Buraya hadisə yerindən operativ reportajlar yayımlamağa gələn jurnalistlərin də sayı artıb. Deməli, havadan barıt qoxusu gəlir.

***Məsaim ABDULLAYEV***
***XQ***

---

# Neft bazarı çökür

## *Dövlətlərin bu sahədən gəliri azalır*



**Yaxın Şərqdə vəziyyət gərginləşib. Bazar ertəsi İsrail HƏMAS təşkilatının rəhbəri İsmayıl Haniyənin Tehranda öldürülməsinə görə İrandan intiqam məqsədi ilə cavab zərbəsi gözləyərkən, ABŞ müttəfiqini qorumaq üçün dəniz qüvvələrini gücləndirir. Bunların fonunda isə dünya bazarında neft sürətlə ucuzlaşır.**

Əmtəə bazarı tamamilə fərqli reaksiya nümayiş etdirir. Adətən, ən mühüm enerji resursunun istehsalı üçün çoxsaylı obyektlərin və onun nəqli üçün dəniz yollarının yerləşdiyi Yaxın Şərq regionunda vəziyyətin hər hansı kəskinləşməsi neftin qiymətinin artmasına səbəb olur. Lakin bu dəfə hər şey tamamilə fərqlidir. Əgər avqustun 1-də Şimal dənizində Brent markalı neftin bir bareli, təxminən, 81,5 dollara, 1 gün sonra 77,5 dollara satılırdısa, bazar ertəsi bu göstərici 76 dollar olub. Hətta ticarət zamanı kotirovkalar (maliyyə aktivinin satıcı və ya alıcı tərəfindən elan edilən və alqı-satqı etməyə hazır olduğu cari qiyməti) 75 dollara düşüb. Bu isə 2024-cü ildən bəri ən aşağı səviyyədir.

Beləliklə, dünya bazarı 6 ayda neft fyuçers satışlarının ikinci böyük dalğasının şahidi olub. Birinci dalğa aprelin əvvəlində, neftin 1 barelinin qiyməti 91 dollar olanda başlayıb. 2 ay əvvəl, OPEC+ görüşündən sonra kotirovkalar iyunun 4-də ticarət zamanı 77 dollardan aşağı düşdüyü zaman kulminasiya nöqtəsinə çatıb. Hətta o zaman çöküşün əsas səbəbi kimi planetin iki ən böyük iqtisadiyyatı olan ABŞ və Çindən əldə edilən məyusedici makroiqtisadi məlumatlar göstərilib. Digər tərəfdən Çin dünyanın ən böyük neft idxalçısıdır.

Qiymətlərin xüsusilə kəskin enməsinin bilavasitə səbəbi isə Səudiyyə Ərəbistanı və Rusiya da daxil olmaqla bir sıra əsas OPEC+ iştirakçılarının oktyabr ayında dünya bazarına neft tədarükünü tədricən artırmağa başlamaq qərarı olub. Bu qərar ABŞ və Çində iqtisadi dinamikanın pisləşməsi və müvafiq olaraq onların neftə olan tələbatının ehtimal olunan azalması ilə açıq şəkildə ziddiyyət təşkil edirdi.

Düzdür, həmin çöküşdən sonra qiymətlər bir qədər bərpa olundu, təxminən, 87,5 dollarıdək yüksəldi. Amma sonra vəziyyət dəyişməyə başladı. İyulun 5-dən başlayaraq 1 aydır ki, neftin qiyməti yenidən aşağı düşməyə başlayıb. Hazırda, təxminən 76-77 dollar səviyyəsindədir. Eyni zamanda, bir çox treyder kotirovkaların daha da aşağı düşməsi ehtimalının yüksək olduğunu bildirib.

Keçən həftənin sonundan etibarən fyuçerslərin sürətli satışına səbəb, həm də ABŞ-da əmək bazarının vəziyyəti ilə bağlı məlumatlar olub. Bildirilib ki, işsizlik son 3 ildə ən yüksək həddə çatıb. Bu, Federal Ehtiyat Sisteminin inflyasiya ilə mübarizədə son iyirmi ildə ən yüksək olan faiz dərəcəsini azaltmağı geçikdirməsi ilə bağlı qorxuları artırıb. İndi ABŞ tənəzzüllə qarşılaşa bilər.

Beləliklə, Amerikada digər zəif makroiqtisadi göstəricilərlə güclənən tənəzzül qorxusu Yaxın Şərqdə yeni hərbi əməliyyatların gözlənilməsi təhlükəsi ilə daha da artıb. Hazırda kotirovkaların çöküşünə (və aparıcı birjalarda səhm qiymətlərinin əhəmiyyətli dərəcədə azalması) səbəb olan iqtisadi narahatlıqların bazara nə qədər təsir edəcəyi bəlli deyil. Bəlli olan dünya fond birjalarında səhmlərin ucuzlaşmasıdır. Bəzi səhmlərdə qiymət 1,5-2,5 faiz düşüb. Dollar da digər aparıcı valyutalara nisbətən dəyərsizləşib.

Neftin dünya bazar qiymətində azalması Azərbaycana da təsir edir. Çünki neftin dünya bazar qiyməti Azərbaycana daxil olan valyutanın həcmi baxımdan vacibdir. Ölkə ixracatının təxminən 80 faizini neft və neft məhsulları təşkil edir. Buna görə neftin qiyməti bir tərəfdən gəlirlərimiz, digər tərəfdən ölkəyə valyutanın daxil olması baxımından əhəmiyyətlidir. İqtisadçı-ekspert Vüqar Bayramov deyib ki, 2024-cü ilin dövlət büdcəsinə edilən dürüstləşmələrdən sonra əsas maliyyə sənədində neftin qiyməti 60 dollardan 75 dollarıdək artırıldı. Hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır. Doğrudur, 2024-cü ilin geridə qalan ayları üzrə neftin orta qiymətini nəzərə aldıqda mövcud bazar tarazlığı fiskal gəlirlərimiz üçün risk formalaşdırmır. Amma neft ölkəyə valyuta daxil olmasına xüsusi təkan verdiyi üçün 2024-cü ildə ölkəyə daxil olan vəsaitin həcmi, eləcə də tədiyyə balansımızın vəziyyəti birbaşa neftin dünya bazarının qiymətindən asılı olacaq.

İqtisadçı-ekspert neft qiymətinin manatın məzənnəsinə təsirlərinə də toxunub. Bildirib ki, neftin qiymətinin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə Mərkəzi Bank 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatında da bu ildə də neft gəlirlərimizin manatın məzənnəsinə təsir edən əsas faktor olacağı vurğulanır. Fiskal sektorun valyuta təklifi və tələbi, eləcə də iqtisadi subyektlərin məzənnə gözləntiləri valyuta bazarındakı tarazlığa təsir göstərən əsas amillər kimi qruplaşdırılsa da aydındır ki, bu indikatorlar da birbaşa enerji bazarındakı volatillikdən asılıdır. Mərkəzi Bankın məzənnə siyasəti üzrə əməliyyat hədəflərinə nail olmaq üçün valyuta bazarına zəruri hallarda müdaxilə edəcəyini bildirməsi isə ondan xəbər verir ki, enerji bazarında ciddi volatillik baş verəcəyi halda valyuta ehtiyatlarımızdan istifadə edilə bilər. Bu isə o deməkdir ki, manatın məzənnəsi yenə də birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# BİLDİRİŞ

"Nijeqorodskiy ximiko-farmasevtiçeskiy zavod" Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyi (qısaldılmış adı "Nijfarm" SC ARN) cəmiyyətin yeganə təsisiçisi olan "NİDDA LİNKS S.A.R.L." şirkətinin 17 iyul 2024-cü il tarixli qərarı ilə ləğv edilir.

Kreditorlar ləğv edilən hüquqi şəxsə qarşı tələbləri ilə əlaqədar 60 gün ərzində AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti 49C nömrəli ünvanda, 11-ci mərtəbəyə müraciət edə bilərlər.

Əlaqə nömrəsi (+99455) 255-50-20).

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 166 (30570) 7 avqust 2024-cü il, çərşənbə

# “Paris-2024”: güləşçimiz bürünc medal uğrunda mübarizə aparacaq






**Dünən güləş yarışlarında daha 3 çəkidə mübarizəyə start verilib.**

Yunan-Roma güləşçilərimizdən Sənan Süleymanov (77 kq) xalçaya çıxıb. Dünya çempionatlarının 2 qat gümüş mükafatçısı 1/8 finalda Aik Mnatsakanyanla (Bolqarıstan) güləşib. İdmançımız görüşün gedişində zədələnməsinə baxmayaraq, xalçaya qayıdaraq inamlı qələbə qazanıb – 2:0. Güləşçimiz 1/4 finalda macarıstanlı Zoltan Levai ilə qüvvəsini sınayıb. Sənan bu dueli də aktivinə yazıb. Qarşılaşma 1:1 hesabı ilə yekunlaşsa da, güləşçimiz sonuncu xal prinsipinə əsasən adını yarımfinala yazdırıb. Sənan Süleymanov final uğrunda qazaxıstanlı Demeu Jadrayevlə qarşılaşıb. Rəqibinə 1:6 hesabı ilə uduzan güləşçimiz bu gün bürünc medal uğrunda mübarizə aparacaq.

Qadın güləşində bir kateqoriyada ilk qarşılaşmalar keçirilib. Azərbaycanın bu növdəki yeganə təmsilçisi Mariya Stadnik (50 kq) özünün 5-ci olimpiadasında mübarizə aparıb. Olimpiya Oyunlarının ikiqat gümüş və bürünc mükafatçısı ilk görüşdə rəqibi Anastasiya Blavyası (Almaniya) məğlub edib. Təmsilçimiz 2-ci qarşılaşmasında Otqonjarqal Dolqorjavla (Monqolustan) güləşib. Gərgin keçən görüş 4:4 hesabı ilə başa çatıb və xalların keyfiyyətinə görə rəqib mərhələ adlayıb.

Yunan-Roma güləşçimiz Sabah Şəriəti (130 kq) isə bürünc medal uğrunda mübarizə aparıb. Qeyd edək ki, estoniyalı Heiki Nabi və qazax Alımxan Sızdıkov (Qazaxıstan) üzərində də qələbə qazansa da, yarımfinal səddini keçə bilməyib. Son 4 Olimpiya Oyunlarının qalibi kubalı Mixain Lopes onu məğlub edib. Dünən bürünc medal uğrunda mübarizədə Şəriəti Amin Mirzəzadə (İran) ilə qarşılaşıb. İdmançımız rəqibinə məğlub olaraq medalsız qalıb.

Əlavə edək ki, indiyədək komandamızın aktivində 3 medal var. Cüdoçularımız Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq) Olimpiya çempionu olublar. Boksçu Alfonso Dominqes (92 kq) finala yüksəlməklə, ən azı, gümüş medalı təmin edib.

## Keniyalı atletin medalı özünə qaytarılıb

**Keniyadan olan ikiqat olimpiya çempionu Feyt Kipyeqonun Paris Olimpiadasında qazandığı gümüş medal özünə qaytarılıb.**




5 min metr məsafəyə qaçışda 2-ci olan atletin nəticəsi finişə iki dövrə qalmış efiopiyalı Qudaf Tseqayın əlindən tutduğuna görə ləğv olunmuşdu. Diskvalifikasiya ilə bağlı apellyasiya şikayətindən sonra gümüş medalın qaytarılması qərara alınıb.

## Yamayka idmançısı stadiona buraxılmayıb

**Qadınların 100 metr məsafəyə qaçış yarışının favoritlərindən olan Şelli-Ann Fraser-Prays isinmə hərəkətləri üçün stadiona buraxılmayıb.**



İnternetdə mühafizəçilərin yamaykalı atletin stadiona komanda avtobusunda deyil, öz nəqliyyatında gəldiyi üçün stadiona girişinə icazə vermədiyi ilə bağlı videolar yayılıb. Bundan sonrakı hadisələr dramatik olub. Yarımfinala çıxmasına baxmayaraq, əfsanəvi Freyzer-Prays yarışdan imtina edib. Yamaykalı qadının özü səbəbləri açıqlamasa da, bir çoxları bunun gündüz baş verən hadisə ilə bağlı olduğunu ehtimal edir.

Parisdə bir çox idmançı kənddən kənarda yaşayır. Amma onlar hər gün arenalara problemsiz buraxılırlar. Fraser-Praysın isə maneə ilə üzləşməsi “Paris-2024”ün təşkilatçılarının səriştəsini şübhə altına alan daha bir hadisədir.

Maraq dünyamız

# Don kazakı atları

## *Onlar türk atlarının dölüdür*



**Bəri başdan yazaq ki, müharibələr təkcə vuruşan tərəflərin ordusuna, iqtisadiyyatına və insanların rifahına ziyan vurmur, həm də uduzan tərəfin təbii sərvətlərinin ələ keçirilməsi, bir çox nailiyyətlərinin mənimsənilməsi kimi heç zaman unudulmayacaq izlər buraxır. Elə bu yazıda haqqında söz açdığımız Don kazak atları da Çar Rusiyasının işğalçılıq müharibəsi illərində Orta Asiya və Zaqafqaziyadan gətirilmiş seçmə at cinslərindən törədilmişdir.**

... Bu yaxınlarda Rusiya elektron mətbuatında belə bir fikirlə rastlaşdım: “Don kazak (çöl) atlarının sayının dözülməz dərəcədə azalmasının əsas səbəbi bolşeviklərin 1917-25-ci illərdəki məsuliyyətsizliyi olmuşdu. Halbuki, ölkənin görkəmli atçılıq mütəxəssisi, general-mayor Aleksandr Fyodoroviç Qruşetski ( 1854 – 1917) bu atların artırılması və növün təkmilləşdirilməsi istiqamətində misilsiz addımlar atmışdı”.

Əlavə edək ki, mövcudluğu müharibələr üstündə qurulan Çar Rusiyasının ordusunu atlı dəstələrsiz təsəvvür etmək mümkün deyildi və bu sahənin inkişaf etdirilməsi ilə alimlərlə yanaşı, hərbçilərin də məşğul olması tamamilə təbii idi.

Bəs Aleksandr Qruşetskinin Rusiya Ordusundakı üst miniş atlarının (yəni arabaya qoşulmadan, yəhərlə minilən) xarakteristikasını verərkən nələri xatırlatmışdır? Bu hərbçi zabit Don atlarını əvvəlcə hun atlarının törəmələri adlandırsa da, sonradan həmin faktı daha yaxın tarixlərlə əlaqələndirmişdir. Onu da əlavə edək ki, Sovet dönəmində SSRİ-də geniş yayılan atçılıq zavodlarının təməlini də məhz bu general qoymuş, həmin müəssisələrə zavod adının verilməsi də onun təşəbbüsü olmuşdur.

Üst miniş atları barədə danışarkən xatırladaq ki, qədim yunanlar və romalılar döyüş atlarının üstünə minmir, müharibəyə atlara qoşulmuş kiçik arabalarla gedirdilər. Bu variantdan qladiatorlar daha çox istifadə edirdilər. Elə avropalıların kentavr əfsanələri də at üstündəki qədim türkləri görəndən sonra yaranmışdı.

Aleksandr Qruşetski yazır ki, Don kazak (çöl) atları XVIII – XIX əsrlərdə indiki Rusiyanın Rostov vilayətində başqa ölkələrdən gətirilmiş atların cütləşdirilməsi nəticəsində ərsəyə gətirilmişdir.

Qruşetskinin “1910-cu il – Moskva Ümumrusiya atçılıq sərgisi albomu”nda nəşr edilmiş “Don ətrafı atlar” adlı məqaləsində qeyd edilir: “Türk müharibələri dövründə hərbi qənimət kimi ələ keçirilmiş Şərq atları (türk, fars, Qarabağ (bu nasist Azərbaycanın adını çəkməkdən nə üçün qorxursa mən anlamadım – İ.M.) və Türkmənistan atlarının həm özləri, həm də onları yetişdirənlər Rusiyaya gətirilmiş, Don kazak atlarının formalaşdırılması təmin edilmişdir”.

Aleksandr Qruşetski yazır: “Volqa çayı qədim köçəri hunların qalıqları (nə üçün indiki nəsli yox, məhz qalıqları? – İ.M.) olan qırğızları və kalmıkları iki hissəyə ayırmışdı. Bizim şöhrət qazanmış Şərqi çöl atlarımız həmin köçərilərin atlarından törəmişdir. Volqanın sol sahillərində kiçik boylu, sıx tüklü və nisbətən kobud görkəmli sürətli qırğız atları daha çox idisə, sağ sahillərdə hündür boylu, zərif, insanlarla ünsiyyət qura bilən, mehriban kalmık atları daha çox sevilirdi. Don kazak (çöl) atları məhz belə bir mühitdə formalaşdırılmışdır.

*İttifaq MİRZƏBƏYLİ*

## Olimpiadada bayraq qalmaqalı

**Parisdə keçirilən Yay Olimpiya Oyunlarında növbəti qalmaqal yaşanıb.**




Bu dəfə idman gimnastikası üzrə mükafatlandırma zamanı bayraq düzgün asılmayıb. Belə ki, yaponiyalı idmançı Şinnosuke Oka 1-ci, kolumbiyalı Anhel Baraxasa isə 2-ci pilləni tutub. Eyni xala malik Çjan Bohen (Çin) və Tan Çia-Hun (Çin Taypeyi) bürünc medal alıblar. Mükafatlandırma zamanı qaydalara görə, bu ölkələrin bayraqları yanaşı asılmalı olduğu halda, təşkilatçılar səhvə yol veriblər. Tayvanın bayrağı Çinin bayrağının altından asılıb.

Xatırladaq ki, Oyunların açılışı zamanı Olimpiya bayrağının əksinə asılması da dünyada ciddi rezonans doğurmuşdu.



## Sərbəst güləşçilərimiz Parisə gediblər

**Güləş üzrə Olimpiya komandamızın son heyəti də Parisdədir.**

Sərbəst güləş üzrə komandamızın üzvləri – Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq), Osman Nurmaqomedov (86 kq), Maqomedxan Maqomedov (97 kq) və Giorgi Meşvildişvili (125 kq) Yay Olimpiya Oyunlarında iştirak etmək üçün dünən Parisə yola düşüblər.

Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən yolasalma mərasimində Gənclər və İdman Nazirliyinin, Azərbaycan Güləş Federasiyasının rəsmiləri, məşqçilər, digər güləşçilərimiz və olimpiyaçıların yaxınları iştirak ediblər.

Avqustun 8-də Əliabbasla Osman, növbəti gün Turan və Giorgi, ayın 10-da isə Hacı ilə Maqomedxan mübarizəyə başlayacaqlar.

***Səhifəni hazırladılar:***
***Səbuhi MƏMMƏDOV,***
***Leyla QURBANOVA***
***XQ***

## Abşeronda – külək, Aranda – isti, dağlarda – yağıntı və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 7-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq.**



Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-27°, gündüz 33-38°, dağlarda gecə 13-18°, gündüz 22-27° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3497
SİFARİŞ 1763
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00